# İQLİM DƏYİŞİKLİYİ
## VƏ DEMOKRATİK CƏMİYYƏT

Klaus Diore
Yohanes Varvik
Yana Alyets
Elke Zeefrid
Cozef Stiqlits
Cefri Saks
Coş Byurk
Uğur Akıncı

კულტურულ ურთიერთობათა ცენტრი
კავკასიური სახლი
THE CENTRE FOR CULTURAL RELATIONS
CAUCASIAN HOUSE

Tbilisi
2022

UDC (უაკ) 551·583+321·7
ი-10

Nəşr BMT İnkişaf Proqramının (UNDP) Climate Promise təşəbbüsü çərçivəsində Milli Səviyyədə Müəyyənləşdirilmiş Töhfənin (NDC) Dəstək Proqramının bir hissəsi kimi, NDC əməkdaşlığının dəstəyi, Almaniya, Yaponiya, Avropa İttifaqı, Birləşmiş Krallıq, İsveç, İspaniya, Belçika, İslandiya, İtaliya və Portuqaliya Hökumətləri və BMT İnkişaf Proqramının (UNDP) əsas donorlarının səxavətli maliyyələşdirməsi sayəsində hazırlanmışdır.

Təqdim edilən fikirlər müəllifə aiddir və BMT (UN), o cümlədən, İnkişaf Proqramının (UNDP), NDC Tərəfdaşlıq və Almaniya, Yaponiya, Avropa İttifaqı, Birləşmiş Krallıq, İsveç, İspaniya, Belçika, İslandiya, İtaliya və Portuqaliya Hökumətləri və BMT İnkişaf Proqramının (UNDP) əsas donorlarının baxışlarını əks etdirməyə bilər.

Layihənin rəhbəri: İRAKLİ İREMADZE

Məcmuənin tərtibçiləri: MİXEİL (DAVİT) ADEİŞVİLİ, LEVAN LORTKİPANİDZE

Gürcücədən tərcümə edəni: OQTAY KAZIMOV
Redaktor: QAFQAZ ABDALOV

Məcmuənin redaktoru: LEVAN LORTKİPANİDZE

Səhifələyəni: NİKOLOZ QELAŞVİLİ

ISBN 978-9941-9832-1-4

# B Ə L Ə D Ç İ

Ön söz ........................................................................................................................................ 5

İQLİM DƏYİŞİKLİYİNİN XÜSUSİ ƏHƏMİYYƏTİ HAQQINDA

İqlim böhranı bizim Üçüncü Dünya Müharibəmizdir və ona cəsarətlə cavab vermək lazımdır.......... 7
Bizim hamımız artıq iqlim qaçqınlarıyıq ........................................................................................ 9

İQLİM DƏYİŞİKLİYİ VƏ İQTİSADİ DƏYİŞMƏNİN BƏZİ CƏHƏTLƏRİ

"Net zero" nədir? ........................................................................................................................ 12
Karbonla ticarət: Yeni başlayanlar üçün qısa müqəddimə ............................................................ 15
Hər kəs iqlim haqqında danışır / Sosial-ekologiya transformasiyasının perpektivləri ..................... 21

İQLİM DƏYİŞİKLİYİ VƏ DEMOKRATİK İCTİMAİYYƏTİN PROBLEMLƏRİ

„Ekodiktatura yolundamı? – İqlim etirazı bir demokratiya problemi kimi ...................................... 28
İqlim ədaləti və Gender ədaləti ..................................................................................................... 33
Dayanıqlıq və Demokratiya .......................................................................................................... 37

# ÖN SÖZ

Atmosferdə istixana qazlarının konsentrasiyasının artması sənayeləşmə dövrünə nisbətən qlobal temperaturun yavaş-yavaş yüksəlməsinə səbəb olur. Yer kürəsini öyrənən alimlər, müvafiq ölçülərin alınmadığı təqdirdə, temperaturun, sənayeləşmədən əvvəlki göstəricini 3-6 dərəcə ilə keçəcəyindən ehtiyat edirlər. Qlobal istiləşmə və iqlim dəyişikliyi su və qida qıtlığı yaradacaq, təbii fəlakətlər artacaq və bunun nəticəsində dünyanın fərqli bucaqlarında ekstremal dərəcədə pis havalarla üzləşəcəyik. Nəhayət, yer kürəsi müharibələr, kütləvi mühacirət və iqtisadi böhranlar burulğanına düçar ola bilər.

İqlim dəyişikliklərinin sürətlənməsini bir çox amil şərtləndirir. Mütəxəssislər əsas diqqəti filiz yanacaqlarına verirlər. İstilik-energetika, nəqliyyat, sənaye və inşaat sahələrində daş kömür, neft və qazdan kütləvi şəkildə istifadə etmək atmosferdə istixana qazlarının cəmləşməsini artıran başlıca səbəblərdən biridir. Qlobal istiləşmə prosesinə heyvan mənşəli qidaların həddindən artıq istehsalı da öz töhfəsini verir.

2015-ci ildə, dekabrda, Parisdə keçirilən BMT İqlim Konfransında beynəlxalq ictimaiyyətin üzvləri İqlim mühafizəsi üzrə yeni saziş imzaladılar. Sazişin başlıca məqsədlərindən biri qlobal temperaturun artmasının 2 dərəcə selsiyə qədər məhdudlaşdırılmasıdır. Hədəfə çatmaq üçün dünya nəhəng dəyişiklikləri həyata keçirməyə məcbur olacaq. Həmin dəyişikliklər ictimai fəaliyyətin bütün sahələri və sıravi vətəndaşların həyat tərzinə də toxunacaqdır.

Proseslə bağlı iqlim dəyişikliyi tədqiqatçıları və Yer kürəsini mühafizə edən fəallarda bir çox sual yaranır: Qlobal iqtisadiyyat hansı istiqamətə yönəlməlidir? Müasir elmi-texniki nailiyyətlər iqtisadiyyatın dəyişməsi üçün kifayətdirmi? Demokratik idarə şəraitində iqlim üzrə effektli siyasət aparmaq mümkündürmü? İqlim siyasəti əlehydarlarının təsirlərini necə tarazlaşdırmalı? İqlim böhranının dayandırılması işində inkişaf etmiş ölkələrin məsuliyyəti necə olmalı? Kasıb ölkələr Qlobal istiləşməyi dayandırmaq üçün nə kimi öhdəliklər götürməli?

Ümid edirik ki, “Qafqaz evinin” yaşıl siyasəti və dayanıqlı inkişaf proqramı əməkdaşları tərəfindən tərtib edilən “İqlim dəyişikliyi və demokratik cəmiyyət” adlı məcmuənin ölkəmizdə nəşr edilməsi bu məsələ barədə diskussiyaların başlamasına dəstək verəcək və sadalanan suallara əsaslı cavablar tapmaqda bizə kömək edəcəkdir. İqlim dəyişiklikləri Dövlət sərhədlərini və iqtisadi göstəricilərini tanımır, o planetimizdə yerləşən bütün ərazilərə, inkişafı səviyyəsindən asılı olamayaraq bütün məkanlara qarşı bir təhlükədir. Gec-tez gürcü cəmiyyəti də, öz gələcək planlarını müəyyənləşdirdikdə, iqlim dəyişikliklərindən irəli gələn amilləri nəzərə almalı olacaqdır. İqlim böhranı nəticələrinə ciddi yanaşmadığımız halda Dövlətin inkişafına yönəlmiş ambisiyalı layihələrimiz bir tərəfdə qala bilər.

“Qafqaz evi” Gürcüstanda fəaliyyət göstərən ətraf mühiti mühafizə edən qədim təşkilatlardan biridir. O, fəaliyyətinə 80-ci illərin sonunda təsis etdiyi Yaşıllar hərəkatından başlayıb. Biz, müstəqil Gürcüstanda, ətraf mühiti mühafizə edən bütün əhəmiyyətli mübarizədə və kampaniyada iştirak etmişik. Təəssüflər olsun ki, son vaxtlar həmvətənlərimizin bir qismi üçün bu sahədəki fəallıqlar yalnız ayrıca parklar və bağların müdafiəsi ilə assosiasiyalaşdırılır. Qarşıdakı məcmuəni nəşr etməkdə məqsədimiz 21-ci əsrdə yalnız yaşıl aktivizmin kifayət etmədiyini, kainatın iqlim mühafizəsi problemilə üzləşdiyini, bunun üçünsə daha qlobal problemlər barədə düşünməyin və xüsusi səriştənin tələb olduğunu göstərməkdir.

“İqlim dəyişikliyi və demokratik cəmiyyət” adlı nəşr azərbaycan dilinə də tərcümə edildi. Əlbəttə, qeyd olunan addım Gürcüstanın azərbaycandilli icmasında iqlim dəyişikliklərinin nəticələri barədə məlumatın yayılmasına xidmət göstərir. Lakin, bizim başqa hədəflərimiz də var. İstəyirik ki, milli azlıqların inteqrasiyası prosesi yalnız dil öyrənmək, təhsil sisteminin fəaliyyəti və köhnəçi məişət

ənənələrinin transformasiyası təşəbbüslərinə əsaslanmasın, inteqrasiyanın ən əhəmiyyətli ön şərti ortaq sosial-iqtisadi və ətraf mühitin mühafizəsi dəyərləri üzərində razılaşma da olsun. Hesab edirəm ki, iqlim böhranına qarşı mübarizə nəinki bir ölkə ərazisində yaşayan xalqları birləşdirməyə, habelə qlobal miqyaslı ittifaqların yaranmasına qadirdir.

Məcmuənin məzmunu haqda da bir neçə kəlmə deyim.

Nəşr üç hissədən ibarətdir. Birinci hissədə dünya səviyyəli alimlərin yekunlaşdırıcı qiymətləndirmələri və çağırışları birləşdirilmişdir. Tərcümə edilmiş mətnlərdə iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı –Cozef Stiqlits və BMT Dayanıqlı İnkişaf Şəbəkəsinin Direktoru – Cefri Saks iqlim dəyişikliyinin əhəmiyyəti barədə müzakirə apararaq, əsas diqqəti təxirəsalınmaz fəaliyyətin vacibliyinə verir və qlobal ictimaiyyəti gözlənilən nəticələr barədə xəbərdar edirlər.

İkinci hissə özündə britaniyalı, amerikalı və alman iqtisadiyyatçıların və sosioloqların müşahidələrini birləşdirir. Müəlliflər öz səylərini iqlim böhranından çıxış yollarını axtarmağa sərf edirlər. Diqqətli oxucu, alimlərin iqlim dəyişikliyinin məhvedici nəticələrinin aradan qaldırılması istiqamətində təklif etdikləri bütün strategiyaları asan sezə bilər.

Qarşıdakı kiçik həcmli məcmuənin yekun hissəsi isə müasir dünyada iqlimin mühafizə hərəkatları və onların əsas problemlərini müzakirə edir. Burdaca iqtisadiyyatın dəyişməsi cəhətdən demokratik təsisatların məhdud imkanlarına diqqət çəkilərək, demokratik cəmiyyətdə fəaliyyətdə olan qüvvələrin dayanıqlı inkişaf məsələsinə bəslədikdləri münasibət də müzakirə edilir.

İqtisadiyyat doktoru, cənab Davit (Mixeil) Adeişviliyə qarşıdakı məcmuənin tərtib edilməsində iştirak etdiyi üçün təşəkkür edirik. Məqalələrin tərcüməsi məsuliyyətini mütəxəssislərdən əlavə gənc tələbələrin də üzərlərinə götürmələri faktı bizi sevindirir. Mixeil Beroşvilinin, Marika Tkeşelaşvilinin, Nikoloz Çanturiyanın və Bidzina Buçukurinin çəkdiyi zəhməti xüsusilə qiymətləndiririk. Artıq on illərdir ki, görkəmli ədəbiyyatçı və tərcüməçi - cənab Oqtay Kazımovla olduqca uğurlu şəkildə əməkdaşlıq edirik. Onun səyi olmadan bu aktual, olduqca mürəkkəb məzmunlu yazıların azərbaycan dilinə tərcüməsi qeyri-mümkün olacaqdı.

Məcmuəni nəşr etmək “Marneuli və Qardabani bələdiyyələrində yaşayan milli azlıqların iqlim dəyişikliklərinin nəticələri haqda məlumatlandırılması” layihəsi çərçivəsində mümkün oldu.

Əlbəttə, bunun üçün layihəni maliyyələşdirən BMT İnkişaf Proqramı – UNDP-yə xüsusi təşəkkürümüzü bildiririk.

Nəhayət, qeyd etmək istəyirik ki, layihəni həyata keçirmək “Qafqaz evinin” icraçı direktoru – İrakli İremadzenin liderliyi olmadan baş tutmazdı.

*Hörmətlə,*
***Levan Lortkipanidze***
*“Qafqaz evi” şurasının sədri*

# İQLİM BÖHRANI BİZİM ÜÇÜNCÜ DÜNYA MÜHARİBƏMİZDİR VƏ ONA CƏSARƏTLƏ CAVAB VERMƏK LAZIMDIR

***Cozef Stiqlits*** *– İqtidasiyyat sahəsində Nobel mükafatı laureatı (2001), Kolumbiya Universitetinin professoru, iqtisadiyyatın yeni, Keynziyanistçi məktəbinin ən nüfuzlu nümayəndəsi, Dünya bankının keçmiş iqtisadçısı.*

"Yeni yaşıl kursu"-un (The Green New Deal) tərəfdarları iqlim böhranının öhdəsindən gəlməyin təxirəsalınmaz zərurət olduğu qənaətindədirlər. Bununla yanaşı, onlar böhrana qarşı mübarizə üçün lazım olan miqyaslar və ölçüləri xüsusi vurğulayırlar. Onlar haqlıdırlar. Böhranın təcili həllinin tərəfdarları "Yeni kurs" terminindən istifadə edirlər ki, bununla da Franklin Delano Ruzvelt və Amerika Birləşmiş Ştatları Hökumətinin Böyük depressiyaya cavab olaraq bəslədikləri kimi güclü reaksiyaya nail olsunlar Onların canlandırmaq istədikləri başqa, daha yaxşı bənzətmə, bütün ölkənin İkinci Dünya Müharibəsində döyüşəcəyini elan etdiyi ümumi səfərbərlikdir.

Bu ideyaya tənqidi yanaşan insanlar: "Əcəba, bizim bu kimi imkanlarımız varmı?" deyə sual verir və "Yeni yaşıl kursu" tərəfdarlarının yer kürəsinin xilası üçün mübarizəsini, hansı ki hər bir ağıllı insan üçün təbiidir, cəmiyyətə qarşı gündəmi dəyişmək niyyəti ilə səhv salırlar. Tənqidçilərin hər iki fikri yanlışdır.

Bəli, düzgün fiskal siyasət və kollektiv iradə sayəsində buna imkanımız var. Ancaq burda ən əhəmiyyətlisi "Yeni Yaşıl Kursu"-nu həyata keçirmək istəyimizin, bu problemin öhdəsindən gəlmək iradəmizin olmasıdır. İqlimin fövqəladə vəziyyəti bizim Üçüncü Dünya Müharibəmizdir. İndiyədək tanıdığımız həyatımız və sivilizasiyamız təhlükə qarşısındadır, lap İkinci Dünya Müharibəsində məhv olma təhlükəsi yaşadığı kimi.

İkinci Dünya Müharibəsinin gedişatında ABŞ-a hücum edildikdə heç kəs: "Bizim bu müharibədə döyüşmək imkanımız varmı?" sualını vermədi. Bu eqzistensial məsələ idi. Biz döyüşməyə bilməzdik. İqlim böhranı haqqında da eyni şeyi deyə bilərik. Məsələyə laqeyd yanaşmağımızın bədəlini təcrübə etməkdəyik. Son illərdə, ölkəmiz, iqlimlə bağlı fəlakətlərə görə (daşqınlar, qasırğalar və meşə yanğınları nəzərdə tutulur) ÜDM-nin az qalsın 2%-dən məhrum olmuşdur. Hazırda, iqlimlə əlaqəli xəstəlik xərcləri hesablanma prosesində olsa da, on milyardlara dollara çatacağı indidən bəllidir – itirilən həyatların hesablanmamış sayını nəzərə almasaq. Biz bu və ya başqa yolla, istənilən halda iqlimin korlanmasının bədəlini ödəyəsi olacağıq. Belə ki, emisiyaların azaldılması üçün indidən bədəl ödəməyimiz, daha sonra daha çox xərc çəkməyimizdən daha faydalıdır – bir tək havanın pisləşməsi üçün deyil, dəniz səviyyəsinin qalxması nəticələri ilə bacarmaq üçün də. Bu klişe olsa da, həqiqətdir: an ounce of prevention is worth a pound of cure (Amerikanın təsisçi atası, Benjamin Franklinin ifadəsi əsasında- Prevensiya (qabaqlama, qarşısını alma – O.K) müalicədən yaxşıdır, yanğından yayınmaq üçün ölçülər götürmək, atəşlə mübarizədən yaxşıdır).

İqlimin fövqəladə vəziyyətilə müharibə, əgər o düzgün şəkildə aparılarsa, iqtisadiyyat üçün həqiqətən də səmərəli olacaqdır. Məhz elə İkinci Dünya Müharibəsinin Amerika İqtisadiyyatının qızıl dövrünün təməlini yaratdığı kimi. O vaxt tarixdə, ümumi rifahla birlikdə, ən sürətli artma qeydə alınmışdı. "Yeni yaşıl kurs" tələbləri stimullaşdıracaqdır. Bu isə bütün mövcud, əlçatan resurslardan istifadə etməyi nəzərdə tutur və beləliklə, yaşıl iqtisadiyyata keçmək iqtisadiyyatda yeni bum yaradacaqdır. Trampın keçmiş sənayelərə, misal üçün daş kömürə fokuslaşması külək və Günəş enerjisini inkişaf etdirmək istiqamətində mövcud olan daha ağıllı təşəbbüsləri boğur. Bərpa olunan enerji ilə daş kömürlə işləyən sənayelərdə itiriləcək iş yerlərindən daha çox iş yeri yaradılacaq.

“Yeni Yaşıl Kurs” üçün ən boyük problem resursları saf-çürük etmək, səhmana salmaq olacaqdır. İşsizliyin aşağı “əsas” göstəricisinə baxmayaraq, Birləşmiş Ştatlarda çox sayda istifadə edilməyən və qeyri-effektli şəkildə bölüşdürülmüş resurslar mövcuddur. Birləşmiş Ştatlarda işləyənlərin orta yaşlı adamların ümumi sayı ilə münasibətdəki hissə payı hələ də aşağı olaraq qalır; keçmişdə olduğundan da aşağıdır; bir çox başqa ölkələrlə müqayisədə də aşağıdır; qadın və azlıqlar üçün xüsusilə aşağıdır. Yaxşıca düşünülüb hazırlanmış ailə məzuniyyətinə dəstək siyasəti və əmək bazarındakı daha çevik vaxt sayəsində, mövcud işçi qüvvəsinə daha çox qadın və 65 yaşdan yuxarı vətəndaşı əlavə edə bilərik. Uzunmüddətli ayrı-seçkilik irsinə görə, bu qədər insan resursumuz lazım olduğu qədər effektli istifadə edilmir. Daha yaxşı təhsil və səhiyyə siyasəti vasitəsilə, infrastruktur və və texnologiyalara daha çox sərmayə yatırtmaqla – ağıllı tədarükçülük siyasətilə – iqtisadiyyatın məhsuldarlığı artırıla bilər. Bu isə iqlimin pozulmasına qarşı mübarizədə və onunla uyğunlaşmaqda lazımlı resursların səfərbərliyini təmin edəcəkdir.

Baxmayaraq ki, iqtisadçıların bir çoxu qısa müddətli perspektivdə belə iqtisadi artım üçün müəyyən məkanın hələ də mövcud olması ilə razılaşırlar (Əlavə imkanların yaradılması üçün məkan. Həmin imkanlardan bəzilərini iqlim böhranına qarşı mübarizə etmək üçün istifadə etmək olar), qısamüddətli iqtisadi tənəzzül olmadan hasilatın necə artması məsələsi mübahisəli məsələ olaraq qalır. Lakin, bu müharibədə döyüşmək üçün resurslar mütləq bölüşdürülməlidir, necə ki, İkinci Dünya Müharibəsi cərəyan edərkən qadınların işçi qüvvəsinə qoşulması məhsuldarlıq imkanlarını artırmışdır. Amma bu yenə də kifayət deyildi.

Bəzi dəyişiklik asan həyata keçiriləcəkdir. Misal üçün, filiz yanacaq sahəsində on milyardlarla dolların subsidiyarlığını aradan qaldırmaq və resursları çirkləyici enerji hasilatından təmiz enerji hasilatına yönəltmək. Bununla belə, Amerikanın bəxti gətirib deyə bilərik: bizim vergi sistemimiz xeyirsizdir, o heç də mütərəqqi deyil və bir çox dəliyi var. Beləliklə, biz iqtisadi səmərəliliyi artırdıqca vəsait cəlb etmək də asandlaşacaqdır. Çirkləyici sənayeni vergiləndirmək, kapitalın ən azı yaşamaq qaynağı üçün işləyənlər qədər yüksək vergi faizini ödəməsini təmin etmək və vergi çatışmazlaqlarını aradan qaldırmaq hökumətə növbəti 10 il ərzində trilyonlarla dollar gətirəcəkdir. Bu məbləğ isə iqlimin fövqəladə vəziyyətinə qarşı mübarizə etmək üçün sərf edilə bilər.

Bundan əlavə, Milli Yaşıl Bank təsis etməklə özəl sektorun iqlim dəyişikliklərinə qarşı mübarizəsi maliyyələşdirilə bilər. Ev sahiblərinə, arzu etdikdə, maliyyə vəsaitləri ayırmaq – həmin vəsaitlərlə onlar izolyasiya və enerjieffektli investisiyalar yatıraraq iqlim böhranına qarşı mübarizəyə öz töhfələrini verə bilərlər. Və yaxud, yaşıl iqtisadiyyat tələblərinə uyğun olaraq öz zavod və ofislərini yeniləmək istəyən bizneslərə kreditlərin verilməsi.

İkinci Dünya Müharibəsi üçün göstərilən səfərbərlik səyləri cəmiyyətimizi dəyişdi. Kənd təsərrüfatı iqtisadiyyatından, kənd cəmiyyətindən sənayə iqtisadiyyatına və şəhər cəmiyyətinə keçdik. Ölkənin müharibə ehtiyaclarını qarşılamaq üçün qadınları müvvəqqəti azad etmək və iş qüvvəsinə cəlb etmək, uzunmüddətli nəticələrə gətirib çıxarmışdır. “Yeni Yaşıl Kursu” tərəfdarlarının da belə bir miqyasda ambisiyaları var və bu heç də reallıqdan uzaq deyildir.

21-ci əsrin innovasiya və yaşıl iqtisadiyyatının, filiz yanacağına əsaslanmış 20-ci əsr sənaye cəmiyyətinin iqtisadi və sosial modellərini izləməyə heç bir səbəbi yoxdur necə ki, sənaye iqtisadiyyatının, erkən orta əsrlərin kənd təsərrüfatı cəmiyyətlərinin sosial və iqtisadi modellərini izləməyə səbəbi yox idi.

*Mənbə: The climate crisis is our third world war. It needs a bold response*
*Joseph Stiglitz / The Guardian*

# BİZİM HAMIMIZ ARTIQ İQLİM QAÇQINLARIYIQ

***Cefri Saks** – Kollumbiya Universitetinin professoru, Dayanıqlı İnkişaf Mərkəzinin Direktoru, BMT Dayanıqlı İnkişaf Şəbəkəsinin Prezidenti. BMT-nin son üç Baş Katibinin Müşaviri idi.*

2 AVQUST 2018-Cİ İL

Cari yay yanğınları, quraqlıqlar və rekord həddəki yüksək temperatur bütün yer kürəsi üçün oyanış təbilinə çevrilməlidir. Məhdud və biliksiz elita amerikalıları və yerdə qalan bəşəriyyəti siyasi səhrada hədəfsiz dolaşmağa nə qədər məhkum etsə, hamımız bir o qədər də bəhrəsiz torpaqlarda yaşamalı olacağıq.

Nyu-york – Holosen adlandırılan konkret iqlim dövründə doğulan müasir insanlar, sərhədi aşaraq yeni iqlim erasına, başqa dövrə – Antroposenə keçdilər. Bəşəriyyətə bu yeni və qorxulu səhrada rəhbərlik etmək üçün Musanın əvəzinə, bir qrup inkarçı və zərərverici alimlər qruplaşması – manqası başçılıq edərək, sivilizasiyanı daha böyük təhlükəyə doğru sürükləyir. Biz, hamımız, hazırda iqlim tərəfindən qaçqınlara çevrilmiş insanlarıq, beləə ki, təhlükəsizliyə gedən yolları da bərabər düşünüb tapmalıyıq.

Holosen geoloji dövr idi. O, 10 000 il bundan əvvəl başladı və əlverişli iqlim şəraitlərilə fərqlənirdi. Bildiyimiz kimi o, insan sivilizasiyasının inkişafına zəmin yaradırdı. Antroposen isəə yeni geoloji dövrdür və bu dövrü bəşəriyyət əvvəllər heç bir zaman yaşamamışdır. Hazırda Yer kürəsi temperaturunun Holosen dövründəkindən yüksək olması xeyirə əlamət deyildir. Temperaturun artmasına səbəb karbondioksiddir. Onu bəşəriyyət atmosferə karbonu, nefti və qazı yandırmaqla, dünya meşələrini və çəmənlərini fermalara, otlaqlara çevirməklə buraxmışdır.

Bu yeni mühitdə insanlar əzab çəkir və həlak olurlar. Gələcəkdə isəə bizi daha dəhşətli şeylər gözləyir. Ötən il sentyabrda Puerto-Rikodakı "Mariya" qasırğası 4000-dən çox insanın həyatına son qoydu. Yüksəkintensivli qasırğalar daha tez-tez baş verir, böyük fırtına daha çox suyun daşması, okeanların isinməsi, sulardakı istiliyin ötürülməsi, isti havadakı nəmişlik və dəniz səviyyəsinin artması səbəbindən irəli gəlir. İnsandan qaynaqlanan iqlim dəyişiklikləri səbəbindən bu proses daha da ekstremal xarakter alır.

Ötən ay, Afina kənarlarındakı quraqlıq və yüksək temperatur sayəsində baş verən meşə yanğını nəticəsində 90 adam həlak oldu. Nəhəng meşə yanğınları analoji olaraq başqa isti və yenicə səhralaşmış yerlərdə, o cümlədən, Kaliforniyada, İsveçdə, Britaniyada və Avstraliyada da tuğyan edir. Ötən il Portuqaliya da bundan öz nəsibini aldı. 2018-ci ilin yayında dünyanın bir çox yerində temperatur göstəriciləri rekord həddə çatdı.

Bəşəriyyət tərəfindən Holosen sərhədlərini, bütün aşkar xəbərdaredici əlamətlərə baxmayaraq, dəhşət filmlərinin uydurulmuş qəhrəmanı kimi heçə sayaraq, aşmaq necə də cahilcə bir davranış idi. 1972-ci ildə Dünya Hökumətləri Stokholmda toplaşaraq artmaqda olan ətraf mühit təhlükələrinin öhdəsindən gəlmək barədə danışdılar. Konfransdan əvvəl, Roma Klubu "Artışın sərhədləri" adlı nəşr dərc etmişdir. Nəşr "dayanıqlı" artış ideyasını ilk olaraq təqdim etmiş və ekoloji normaların pozulması və ətraf mühitin imkanlarının aşılması risklərinə diqqət çəkmişdir. İyirimi ildən sonra xəbərdarlıq əlamətləri Rio de Janeiroda daha aydın görülməyə başlamışdır. BMT ölkələri, Yer kürəsi sammiti üçün ora toplaşmışdılar. Sammitin qayəsi "dayanıqlı inkişaf" konsepsiyasını tanımaq və insandan

qaynaqlanan qlobal istiləşməni dayandımaq üçün ətraf mühiti qoruyan üç əsas sazişə imza atmaq idi. Sazişlərdə diqqət əsasən bioloji müxtəlifliyin müdafiəsinə, torpağın deqradasiyasına və səhralaşmanın qarşısının alınmasına verilmişdi.

1992-ci ildən sonra Birləşmiş Ştatlar, dünyanın ən güclü ölkəsi, həmin üç yeni sazişi təkzib edərək, başqa ölkələrə də öz səylərini yumşalda biləcəklərinə işarə etmiş oldu. ABŞ Senatı İqlim və Səhralaşma sazişlərini ratifikasiya etsə də , onun həyata keçirilməsi üçün heç nə etmədi. Bununla belə, Amerika Qanunvericilik orqanı bioloji müxtəlifliyi müdafiə etmək məqsədilə yaradılmış sazişlərin qüvvəyə minməsindən imtina etdi. Bu qismən qərb ştatlardan seçilmiş respublikaçıların mövqeyi iləə şərtləşmişdi. Onların qənaətincə, mülkiyyətçilər öz ərazilərində, beynəlxalq müdaxilə olmadan, istədiklərini etmək hüququna malikdirlər.

Bu yaxınlarda, 2015-ci ilin sentyabr ayında dünya dayanıqlı inkişaf hədəflərini qəbul etmişdir. 2015-ci ldə Paris İqlim Sazişinə imza atıldı. Lakin, bu dəfə də, ABŞ Hökuməti Dayanıqlı İnkişaf Hədəflərindən qəsdən imtina edərək G-20 ölkələri arasında hədəflərin icrası istiqamətlərində göstərilən səy baxımından sonuncu yeri tutdu. Bununla belə, Prezident Donald Tramp öz niyyəti haqda bildirdi. O, Amerikanın Paris İqlim Sazişini ən qısa zamanda, Sazişin qüvvəyə minməsindən dörddcə il sonra, tərk etməsini istəyir.

Qarşıda bizi daha bədtəri gözləyir. $CO_2$-nin insandan qaynaqlanan artışı hələ tam istiləşməə effektinə gəlib çıxmayıbdır, çünki bu okean temperaturuna bir az gec təsir edəcəkdir. Ən yaxın onilliklərdə atmosferdəki $CO_2$-nin konsentrasiyasından irəli gələrək istiləşmənin təxminən 0,5 dərəcə artması gözlənilir. $CO_2$ konsentrasiyası filiz yanacaqlarının biznes tərəfindən istifadəsi əsasında artmağa davam edərsə, istiləşmə daha yüksək səviyyələrə çatacaq. Paris sazişinin hədəfinə – preindustrial səviyyə ilə müqayisədə isinmənin 2 dərəcəyə qədər məhdudlaşdırılmasına nail olmaq üçün, dünya təxminən 2050-ci ilədək mütləq daş kömürdən, neftdən və qazdan yenilənən enerjiyə keçməli və meşələrin qırılması əvəzinə meşələr salmalı, deqradasiyaya uğramış torpaqları bərpa etdirməlidir.

## BƏŞƏRİYYƏT LABÜD FACİƏYƏ DOĞRU BU CÜR AXMAQCASINA NİYƏ İRƏLİLƏYİR?

Başlıca səbəb odur ki, bizim siyasi təsisatlarımız və nəhəng korporasiyalarımız gedərək artmaqda olan təhlükələri, əskikləri və ziyanı qəsdən təkzib edirlər. Bu günkü siyasət qüdrət əldə etmək və onu qorumaqla, vəzifədən faydalanmaqla əlaqəlidir, problemlərin həlli ilə deyil, hətta bu ətraf mühitin mühafizəsi kimi həyati məna kəsb edən problemlər olsa da belə. İri şirkətlərin idarəsi yalnız səhmdarların gəlirlərinə, səhmlərin dəyərinin maksimum artmasına xidmət göstərir, həqiqəti söyləməyə ya Planetimizi gözləyən təhlükələrin sovuşdurulmasına deyil. Əsas media vasitələri qazanc axtarışında olan sərmayədarların əlindədir və yaxud, ən azı reklamlar vasitəsi ilə onlara təsir edə bilirlər. Beləcə, kiçik, ancaq olduqca güclü qrup filiz yanacaqlara əsaslanmış energetik sistemini əlində saxlaya bilir və nəticədə bəşəriyyətin indisinə və gələcəyinə böyük təhlükə yaradır.

Tramp çirkləndiricilərin əmrlərini yerinə yetirən ən sonuncu faydalı səfehdir. Bu qərarları Konqresin üzvü respublikaçılar möhkəmlədirlər. Onların seçki kampaniyaları üçün vəsaitlərsə Koch Industries kimi ətraf mühit cinayətkarlarından gəlir. Tramp ABŞ Hökumətini Sənaye lobbiçiləri ilə doldurdu. Onlar bacardıqları qədər bütün ətraf mühiti qoruyan tənzimləmələri müntəzəm şəkildə ləğv edirlər. Bu yaxınlarda, Tramp Ətraf mühit Agentliyinin proqramlarından birinə rəhbər olaraq meqaçirkləyici Dow Chemical-ın keçmiş hüquqşünasını təqdim etdi. İnanılmaz və təsəvvüredilməzdir!

Bizə, aydın qlobal hədəfi olan, yeni növ siyasət gərəkdir. Bu hədəf Planetimizdə yaşayan xalqların ətraf mühitin təhlükəsizliyini təmin etmək olmalıdır və ona nail olmaq Paris İqlim Sazişini yerinə

yetirməklə, biomüxtəlifliyi mühafizəə etməklə və havanı çirklətməyi azaltmaqla mümkündür. Biomüxtəlifliyin azalması, havanın çirklənməsi, qlobal istiləşmə hər il milyonlarla insan öldürür. Yeni siyasət, alimləri və texnologiya ekspertlərini dinləyəcək, şəxsi mənfəətlərini güdən iş adamlarını ya da narsis siyasətçiləri deyil. İqlimçilər bizə get-gedə artmaqda olan təhlükələri ölçməkdə kömək edəcəklər; Mühəndislər 2050-ci il üçün sıfır karbon enerjisinə necə keçəcəyimizi deyəcəklər; Ekoloqlar və aqronomlar kiçik torpaq sahəsində daha yaxşı və çox məhsulu necə əldə edəcəyimizi, meşələri qırmağı necə dayandıracağımızı, keçmişdə korladığımız torpaqları necə bərpa etməli olduğumuzu göstərəcəklər.

Belə bir siyasət yürütmək mümkündür. İctimaiyyət bu cür siyasətə susayıb belə. Məsələn, amerikalı xalqın böyük əksəriyyəti Qlobal istiləşməyəə qarşı mübarizə aparmaq istəyir. Paris İqlim Sazişində qalmaq və yenilənən enerjini tətbiq etmək. Unutmamalıyıq ki, məhdud və biliksiz elita amerikalıları və yerdə qalan bəşəriyyəti siyasi səhrada hədəfsiz dolaşmağa nə qədər məhkum etsə, hamımız bir o qədər də bəhrəsiz torpaqlarda yaşamalı olacağıq.

*Mənbə:*
*https://www.project-syndicate.org/commentary/climate-change-disaster-in-the-making-by-jeffrey-d-sachs-2018-08*

# “NET ZERO” NƏDİR?

***Coş Burk*** *– Qrenthem İqlim Dəyişiklikləri və Ətraf Mühitin Mühafizəsi Tədqiqi İnstitutunun Baş Tədqiqatçısı.*

30 APREL 2019

Cari həftənin cümə axşamı, Birləşmiş Krallığın iqlim dəyişikliyi sahəsindəki Müşavirlər Şurası yerli hökumətə ”Net zero” yəni “Sıfır şəbəkə” adlı tövsiyəsinin yekun hədəflərini təqdim edəcəkdir. Məqalədə “Net zero” strategiyasının nəyi nəzərdə tutduğunu, habelə Birləşmiş Krallıqda və bütün dünyada mənəvi və texnoloji perspektivdən nə kimi çağırışların olduğunu müzakirə edəcəyik.

Alimlər uzun illərdir ki, insan fəaliyyəti nəticəsində yaranan karbon dioksinidin ($CO_2$) hədsiz miqdarının qlobal istiləşməni müəyyənləşdirdiyini isbat edirlər. Bu isə o deməkdir ki, fəlakət həddə çatmış iqlim dəyişikliklərindən yayınmaq üçün $CO_2$ emissiyalarını sıfır səviyyəyə endirmək gərəkdir. Məhz elmi tədqiqatlar və onların nəticələri sayəsində idi ki, dünya hökümətləri 2015-ci il Paris Sazişi ilə emissiyalar və istixana qazlarının atmosferdən itməsi arasındakı tarazlığı qorumaq üzrə məsuliyyət götürdülər.

“Net zero” iqlim dəyişikliyinin qabaqlayıcı (önləyici) strategiyasını nəzərdə tutur və onun məqsədi istehsal olunan emissiyalarla atmosferdən götürülən emissiyalar arasında tarazlığa nail olmaqdır. Müqayisə üçün çəndən axan su ilə, açıq kran misalını gətirə bilərik. Bu yanaşmanın başlıca prinsipi tarazlığı o həddə saxlamaqdır ki, su çəndə daşmasın. Bunun üçün ya krandan axan su şırnağını (emissiyaları) azaltmalıyıq, ya da çəndən kranın axıtdığı su qədər suyun çıxmasına imkan yaratmalıyıq (atmosferdən emissiyaları çıxarma – bu emissiyaları karbonun təbii çənlərində konservləşdirilməsini əhatə edir).

İqlim dəyişikliyinin başqa strategiyalarına nisbətən “Net zero” layihəsi daha realdır, çünki o emal nəticəsində buraxılmış emissiyaların müəyyən miqdarına yol verir. Strategiyanın yaradıcıları bu faktı da nəzərə alırlar ki, istehsalatın konkret sektorlarına asan müdaxilə edə bilməyəcəyik, məsələn, aviasiya və emaledici sənaye kimi sahələrdə emissiyaların azaldılması böyük xərclər tələb edir və yaxud, texnologiya və locistik pespektivdən qeyri-mümkündür.

„Net zero“ ssenarisinə görə, bu sektorlardan istehsal edilmiş emissiyalara, yalnız, atmosferdən təbii və ya texniologiya alətlərindən istifadə edərək – mənfi emissiyalar götürüldükdə yol vermək olar.

Qeyd olunan ssenari müxtəlif vasitələrlə təbii və ya texnologiya alətlərindən istifadə edilərək həyata keçirilə bilər. İlk başdan təbii vasitələr daha çox ağac əkməyi nəzərdə tuta bilər. Bu, fotosintez prosesi sürdükcə karbonun hopulması deməkdir. Yeni meşələrin salınması və ya mövcud meşələrin bərpa edilməsini dəstəkləyici amillər kimi müzakirə edə bilərik.

Texnologiya nöqteyi-nəzərdən ən geniş istifadə olunan metod “karbonu ələ keçirərək konservasiya etməkdir” (CCS). Bu vasitə təbii filizlərlərin yanması nəticəsində ayrılmış istixana qazlarından əmələ gələn karbon dioksidin atmosferə yayılmazdan əvvəl saxlanılmasıdır. Karbon dioksid tutulduqdan sonra onun sıxılaraq maye halına salınması və nəqli baş verir ki, torpaq altında, adətən, 1 kilometr dərinlikdə, boşalmış neft və qaz rezervuarlarında konservləşdirə bilsin. Qeyd olunan texnologiya təbii filizlərin yanması, sənaye prosesləri və elektrik enerjisi istehsalı nəticəsində ayrılan $CO_2$ -ni 90%-a qədər konservləşdirə bilər.

Yuxarıda sadalanan yanaşmalar kombinasiyasını yəni bioenerjinin istifadəsini və karbonun konservləşdirilməsini "BECCS" layihəsi də nəzərdə tutur. O, daha çox bitkilər və ağacların böyüdülməsinə, məhsulun toplanmasına və enerji istehsalı üçün onlardan istifadə edilməsinə istiqamətlənmişdir. Karbonun konservləşdirilməsi və torpaq altındakı rezervuarlarda saxlanılmasını yalnız bundan sonra nəzərdə tutur.

Bundan əlavə, birbaşa "Havadan ələ keçirmə metodu" da mövcuddur (DAC – Direct Air Capture), o, karbon dioksidi havadan ayırmağa və onu oksigen molekullarına çevirməyə imkan verir. Bu metod uzun onilliklərdir ki qapalı, oksigen çatışmayan məkanlarda istifadə edilir, məsələn sualtı və kosmik gəmilərdə. Belə şəraitdə $CO_2$-nin havadan ayrılması onun havada konsentrasiyası artmamış və insanların tənəffüsü çətinləşməmiş lazımdır. Lakin, bu metodla bağlı bir çox sual var və həmin suallarla bu metodun iqtisadi səmərəsi şübhə altına düşür – bu yol bu dərəcədə mürəkkəb problemin həlli üçün heç də asan deyildir. Emissiyaların müəyyən qisminin atmosferdə qalması "Net zero" strategiyasının reallığı barədə ciddi şübhələr doğurur.

## TULLANTI EMİSSİYALAR HANSI MİQYASDADIR?

İqlim dəyişiklikləri üzrə Komissiyanın son hesabatına görə, hazırda mövcud olan təbii və texnoloji vasitələrdən maksimum istifadə edərək enerji, nəqliyyat, isitmə, sənaye və kənd-təsərrüfatı sektorlarında karbonun qarşısı alınsa belə, təxminən 130 milyon ton karbon dioksid və ya onun adekvatı (MtCO2e) atmosferdə yenə də qalacaqdır – tullantıların vahid mənfi emissiyaları texnologiyaları ilə götürülməsinə isə təxminən bir il gərəkdir.

Qeyd olunan 130 ton tullantıdan 24% sənaye istehsalının, 31% aviasiyanın, 36% isə istixana qazlarının (əsasən kənd təsərrüfatından) üzərinə düşür.

Emissiyaların bu həcmi mənfi emissiyalar strategiyasından istifadə edərək tarazlaşdırılacaq həddə qədər azaldılmalıdır.

## BİRLƏŞMİŞ KRALLIQDA TULLANTI EMİSSİYALAR HANSI HƏCMƏ QƏDƏR AZALMALIDIR?

Dövlətlərin istifadə edə biləcəkləri növbəti strategiya başqa ölkələrə öz emissiyalarını tarazlaşdırmaları üçün pul ödəməkdir. Bu yanaşmadan o ölkələr üçün istifadə edirlər, hansılar ki, emissiyaların qarşısını almaqda çətinlik çəkirlər. Mənfi emissiya texnologiyasından və təbii vasitələrdən istifadə edən ölkəni maliyyələşdirməklə, sənin ölkənin istehsal etdiyi emissiyalar tarazlaşır, beləliklə, qlobal perspektivdən "Net zero" strategiyası qorunur (sənayeləşmiş və sənayeləşməmiş dövlət arasındakı əlaqələrlə).

Bu ideyanın cazibədar görünməsinə baxmayaraq, Enerji Tranzaksiya Komissiyasının sədri onu sərt şəkildə tənqid edərək, Birləşmiş Krallığın "Net zerosu" məqsədlərinin yalnız və yalnız Birləşmiş Krallığın sərhədləri daxilində ölçülməli olduğunu qeyd etmişdir. Onun qənaətincə, dünyanın hər bir ölkəsi eyni strategiyaya müraciət etsə, "Net zero" – nun hədəflərinə heç bir vaxt çata bilməyəcəyik. Kosta-Rika dünyanın yeganə ölkəsidir ki, onun hökümət üzvləri başqa ölkələrdən öz emissiyalarını tarazlaşdırmağı tələb etməyəcəklərini bildirdilər.

Birləşmiş Krallıq, tarixən yüksək emissiyalar istehsal edən ölkə idi və bu, bu gün də belə olaraq qalır. Demək olar ki, onun karbon dioksid buraxmasını mümkün qədər azaltma cəhətdən mənəvi məsuliyyəti var. Mənəvi arqumentdən kənarda rasional səbəb də mövcuddur. Həmin səbəbə görə

filizlərdən ən çox istifadə edən ölkələr iqlim dəyişikliklərini qabaqlayacaq strategiyaların tətbiqində də qabaqcıl olmalıdırlar, çünki emissiyaların ən çox payı məhz onların üzərinə düşür.

2015-ci il Paris Sazişində də deyilir ki, zəngin ölkələr inkişaf etməkdə olan ölkələrlə müqayisədə öz iqtisadiyyatlarını daha sürətli dekarbonizasiya etməlidirlər.

## "NET ZERO" STRARTEGİYASININ MÜDDƏTLƏRİ NECƏDİR?

İqlim dəyişikliklərinin son pilləsi "Net zero"-nun müddətlərini müəyyənləşdirməkdir – ümdə dörd variant müzakirə edilir: 2025, 2045, 2050-ci illər və ya bu sonuncusundan sonra istənilən hansısa bir il.

Sadalanan variantlardan ən ambisiyalısı 2025-ci ildir. Bu ili "Nəsil Kəsilməsinə Qarşı Üsyankarlar Hərəkatı" tələb edir – bu sonuncusu iqlim dəyişiklikləri və ətraf mühit məsələlərində bir çox təxirə-salınmaz mövzunu qabağa çəkib və hökumətin diqqətini cəlb etməyə də nail olub. Lakin 2025 – ci il yenə də qeyri-real tarix kimi qəbul edilir. "Net zero" hədəflərinə çatmaq üçün bəzi texnologiyalar ümumiyyətlə mövcud deyildir, konsepsiyaları hazırlanmış texnologiyalar isə belə tezliklə tətbiq edilə bilməyəcəkdir – eyni zamanda meşələrin salınması və bərpasına da on illər lazım olacaq. Çətinliklər iqtisadi perpektivdən də görünür – belə qısa müddətdə oxşar texnologiyaların təcrübədən keçirilməsi və yayılmasına böyük maliyyə kapitalı gərəkdir ki, bu da azgəlirli dövlətlər üçün aşılmaz səddir. Bundan irəli gələrək, 2025-ci ili "Net zero" strategiyasının başlanğıc nöqtəsi kimi qəbul etmək ehtimalı çox aşağıdır.

2045-ci ili İsveç və Norveç dövlətləri real hesab edir. Onlar "Net zero" hədəflərini ciddi şəkildə yerinə yetirmə və bu cəhətdən beynəlxalq arenada liderlik etmək niyyətindədirlər. Belə ki, iqlim dəyişiklikləri diplomatiyası sahəsində bir lider kimi Böyük Britaniyanın rolu mütləq kiçiləcəkdir. Onu da nəzərə almalıyıq ki, Böyük Britaniya karbon dioksidin 4-cü ya da 5-ci büdcəsini təsdiq etməyə yaxın belə deyildir. Onun üçün də, hədəfləri cəld yerinə yetirmək üçün müddətləri tezləşdirmək şübhəlidir.

Bütün bunlardan irəli gələrək, „Financial Times" qəzetinin qeyd etdiyi kimi, 2050-ci il həm Britaniya üçün, həm də qlobal olaraq ən real tarix hesab edilir. Eyni zamanda başlanğıc nöqtəsi 2008-ci ilin İqlim dəyişiklikləri Aktının yenidən baxılmasını tələb etmir- lakin 2050-ci il həddində istənilən yayınma, qeyd olunan məsələ ilə bağlı yeni qanun layihəsi hazırlamaq ehtiyacını yaradacaqdır.

*Mənbə: https://www.lse.ac.uk/GranthamInstitute/news/what-is-net-zero/*

# KARBONLA TİCARƏT:
# YENİ BAŞLAYANLAR ÜÇÜN QISA MÜQƏDDİMƏ

***Uğur Akıncı*** *– Texniki Kommunikasiyalar Doktoru, Society for Technical Communication Washington D.C. & Baltimore Chapter (STC WDCB) – un baş tədqiqatçısı*

## KARBON TİCARƏTİ QLOBAL İSTİLƏŞMƏNİ MƏĞLUB VƏ PLANETİ XİLAS EDƏ BİLƏR

İqlim dəyişikliklərinin sürətlənmiş tempinə paralel olaraq, bu problemin həlli yollarını tapmalıyıq.

İqlim dəyişikliyinə qarşı çıxış yollarından biri ölkələr arasında karbon ticarətidir. O, 1990-cı illərdən etibarən ümumi emissiyaların azaldılması üçün uğurla istifadə edilir. Qarşıdakı məqalədə karbon ticarətinin necə işlədiyi və qlobal istiləşmənin qarşısının alınmasının nə üçün əhəmiyyətli olması barədə danışacağıq.

Emissiyaları azaltmaq üçün ölkələr uzun illərdir ki, karbon ticarəti metodundan (Carbon Trading) istifadə edirlər. Həmin metoda əsasən, onlar öz emissiyalarını azaltmaqla bir növ kredit əldə edir və ya öz ərazilərində buna artıq nail olmuş başqa ölkələrdən kreditləri satın alırlar. Bu ssenariyə görə, hər iki tərəf qazanmış olur, çünki hər ikisi də iqtisadi artıma və iş yerlərinə təhlükə yaratmadan emissiyaları azalda bilirlər. Mümkün qədər çox insanda iqlim dəyişikliyi ilə bağlı təfəkkür səviyyəsi yüksəldilməlidir, belə olan halda onun dayandırılması imkanları artacaqdır.

## KARBON TİCARƏTİ NƏ DEMƏKDİR?

Karbon ticarəti, bir termin kimi özündə, atmosferdə $CO_2$ emissiyasının məhdudlaşdırılmasını və limitləşdirilməsini əhatə edən istənilən fəaliyyəti nəzərdə tutur. Həmin fəaliyyətlər əsasən bunlardan ibarətdir: Karbon vergiləndirilməsi, karbonun qiymətinin müəyyənləşdirilməsi və onu müvazinətləşdirmə.

Karbon dioksid istixana qazıdır – o biz insanların, müxtəlif aktivliyi nəticəsində meydana çıxan istini özünə hopdurur, həmin istinin kosmosa yayılmasına imkan vermir və beləliklə plametimizin soyumasına mane olur. Buna görə də $CO_2$ -ni bir istilik tələsi kimi qəbul edə bilərik. Qlobal istiləşmənin əsas səbəblərindən biri də elə məhz karbon dioksidin hədsiz miqdarıdır.

Karbon ticarəti karbon dioksid emissiyaları üzərinə limit gətirir, çünki o, nisbətən kiçik emissiya göstəriciləri olan ölkələrə (sənayeləşməmiş və ya kiçik sənayesi olan ölkələr) yüksək emissiyaları olan ölkələr (sənayeləşmiş ya əhalisinin sayı çox olan ölkələr) üçün karbon kreditlərini satmaq imkanı verir. Bu isə ümumilikdə qlobal perspektivdən iqlim dəyişikliklərinin qarşısının alınmasına müsbət təsir bağışlayır.

## KARBON TİCARƏTİ NECƏ İŞLƏYİR?

Karbon ticarəti emissiya limitlərini təyin etmək və sənaye obyektlərinə və oxşar bizneslərə müvafiq icazələr verməklə işləyir. Əgər bir konkret şirkət icazə verilən limitdən daha az karbon ifraz edirsə, həmin şirkətdə karbon kreditləri artıqlaması ilə qalır.

Bu şirkət artıq qalan karbon kreditlərini öz sənaye fəaliyyətləri nəticəsində icazədə göstərilmiş limiti aşan digər şirkətlərə sata bilər ki, bu da ümumi nəticədə sapmaları balanslaşdırır.

Karbon ticarəti sistemi nəinki emissiyaların limitləşdirilməsini, habelə tənzimlənməsini də təmin edir. Beləliklə, deyə bilərik ki, karbon ticarəti onun bir növ vergiləndirmə metodudur da.

Emissiya limitini aşmaq üçün təyin edilmiş cərimə və karbon kreditləri ilə ticarət etmək də bütün sənaye obyektləri üçün təşviqedici mexanizmlərdir. Onun sayəsində karbon dioksid emissiyası nisbətən az əmələ gələcəkdir.

## KARBON-NEYTRAL ŞİRKƏT NƏ DEMƏKDİR?

Karbon – neytral şirkət dedikdə, istehsal etdiyi istixana qazları emissiyasını balanslaşdırmaq üçün atmosferdən eyni miqdarda karbon emissiyasını çıxaran şirkət nəzərdə tutulur. Konkret şirkət yalnız xüsusi olaraq beş maddəli protokola cavab verdikdə karbon-neytral sertifikatı ilə təltif olunacaqdır.

Karbon kreditləri nədir?

Karbon kreditləri karbon emissiyalarını azaldan, yaxud onun hopulması mexanizmlərini yaxşılaşdıran karbonla ticarət edən subyektlərə və ya istehsalçılara verilir.

Bir karbon krediti azalan, aradan qaldırılan ya konkret layihədən uzaqlaşdırılan bir ton karbon dioksididir.

2015-ci ilin Paris İqlim Sazişi məhz həmin kreditlər sistemindən istifadə edir və şirkətlərə öz emissiya göstəricilərini təqdim etmək öhtəliyi qoyur[1].

## KARBONU MÜVANİZƏTLƏŞDİRMƏ NƏ DEMƏKDİR?

Karbonu müvazinətləşdirmə karbon kreditlərindən o cür istifadə etməyi nəzərdə tutur ki, onun sayəsində şirkətlərə emissiyaların azaldılmasına birbaşa öz fəaliyyətləri ilə deyil, “Carbon Sink”[2] layihəsinə sərmayə yatırtmaqla nail olmaq imkanı verilir (Əsas hallarda meşə salınma və onların bərpası).

Müvazinətləşdirmənin effektliyi azalmış karbon emissiyalarını ölçməklə və ya atmosferdən arındırılmış emissiyaların miqdarı ilə müəyyənləşdirilir. Müvazinətəşdirmə strategiyasının implementasiyası ilə şirkətlər həmçinin kreditlər alırlar. Həmin kreditləri isə, artıq qeyd etdiyimiz kimi, karbon limitini qorumağa ehtiyac duyan şirkətlərə sata bilərlər.

Müvazinət strategiyasını istənilən ölkədə həyata keçirmək mümkündür. Yalnız, bunun üçün “Clean Development Mechanism”-in İcraçı Şurası müvafiq icazə verməlidir.

İcazəni əldə etdikdən sonra, İcraçı Şura kreditlər verir və hər bir kredit bir ton karbon dioksidə bərabərdir. Qeyd olunan kreditləri şirkətlər bir çox hallarda, “Sertifikatlaşdırılmış Emissiyaların Azaldılması“ (CER) adlandırırlar. Şirkətlər Parisdə 2015-ci ildə müəyyəbləşdirilən emissiya limitlərini aşsalar, CER-i başqa şirkətlərdən satın ala bilərlər.

[1] https://carbonfund.org/verified-emission-reductions/

[2] Carbon Sink Projects – Atmosfer püskürdüləndən çox karbonun geri götürülməsinə dəstək verən bütün vasitələri əhatə edir

## KARBON ÇANAĞI NƏDİR?

Karbon Çanağı (Carbon Sink) təbii və ya insan tərəfindən idarə edilən, atmosferdən karbon dioksidin hopulmasına dəstək verən ərazilərə deyilir.

Bunun əksinə, hopmasından çox karbon əmələ gətirən bütün vasitələr karbon qaynağı (Carbon source) kimi göstərilir. Misal üçün, təbii filizlərin yanması və vulkanın püskürməsi karbin qaynağıdır.

Karbon çanağı havadan karbon dioksidi ayırır və onu üzün müddət ərzində saxlayır. Bu daha çox ağaclar, torpaq, biokütlə və karbon ehtiva edən materyallarda baş verir.

Alimlərin hesablamaları ilə, karbon çanaqlarının aktivliklərinin yalnız 20%-i qurunun payına düşür, onun ən böyük hissəsi, 80%-i okenalarda baş tutur.

İnsan fəaliyyətinin karbon çanaqlarına mənfi təsiri var. Meşələrin məhv edilməsi və bataqlıqların qurudulması nəticəsində atmosferə uzun müddət saxlanılan karbon yayılır.

Buna bənzər itkilərin müvazinətləşdirilməsi üçün karbon kreditləri ilə ticarət edən şirkətlər yeni meşələr salmaqla, yaxud, mövcud olan meşələri xilas edib inkişaf etdirməklə bağlı öhdəlik götürürlər. Bununla, onlar həm istixana qazlarının emissiya limitini aşmaq haqqını qazanır və həm də münazinətləşdirmə öhdəliyini yerinə yetirmiş olurlar.

## KARBON BAZARI OYUNÇULARI KİMLƏRDİR?

Karbon bazarı iştirakçıları bunlardır:

- Özəl şirkətlər (karbon istehsalçıları və ya karbon çanaqları yaradıcıları);
- Hökumətlər (Milli Hökümət Orqanları- Ətraf mühiti mühafizə edən Departamentlər, Milli İnkişaf Bankları);
- Qeyri-Hökumət Təşkilatları (Karbon ticarəti, emissiyalar və karbon çanaqları üzərində işləyən təşkilatlar);
- Brokerlər (Emissiya istehsalçıları və karbon çanaqlarını yaradanlara xidmət edən şirkətlər).

## ATMOSFERDƏ MÖVCUD OLAN $CO_2$ HANSI DƏYƏRDƏDİR?

Hazırda, qlobal karbonun orta qiyməti bir ton karbon dioksid üzrə üç ABŞ dollarıdır. Qiymət Donald Trampın prezidentliyi müddətində hiss ediləcək dərəcədə düşdü və bir ABŞ dollarına bərabər oldu.

2021-ci ildə Co Baydenin Administrasiyası bir ton karbonun qiymətini 51 dollaradək artırdı və bu da öz növbəsində biznes və sənaye istehsalçılığı üçün karbon dioksid emissiyası yükünü hiss ediləcək dərəcədə artırdı.

Ecosystem Marketplace-in hesabatına görə karbon bazarının illik dəyəri 1 milyard ABŞ dollarını aşdı. Bütün zamanların rekord göstəriciləri isə 6.7 milyad ABŞ dollarıdır. Hələ 2016-cı ildə, 412 milyon ton karbon dioksid 18 rəsmi ticarət razılaşması nəticəsində satıldı.

## EMİSSİYA KREDİTİ NƏDİR?

Karbon ticarətinin necə fəaliyyət götərdiyini anlamaq üçün, hələ emissiya kreditinin nə olduğunu və onun qlobal istiləşmə və iqlim dəyişikliyi ilə nə kimi əlaqəsi olduğunu bilməyimiz şərtdir.

Emissiya krediti, müəyyən miqdarda istixana qazlarının ətrafa yayılmasına imkan verən icazə və ya sertifikatdır.

Karbon emissiyalarının icazələri üzrə limitlərin mövcud olması, nisbətən aşağı emissiya miqdarı olan ölkələrə, öz kreditlərini emissiyalar limitini aşan dövlətlərə satmaq imkanı verir.

Karbon emissiyaları sənaye və ya qeyri-sənaye məkanı olmasından asılı olmayaraq yer kürəsinin istənilən yerində var və qlobal istiləşməyə və iqlim dəyişikliyinə şərait yaratdığı üçün, hamımıza mənfi təsir edir.

## ƏTRAF MÜHİT ÜÇÜN FAYDASI

Karbon ticarətinin ətraf mühitə nə kimi faydası var?

Karbon ticarəti emissiya limitini aşan iş adamlarına və fərdi sahibkarlara (ya heç vaxt karbonla ticarət etməyənlərə) ümumi emissiyalarını, emissiya həddini aşmamış şirkətlərlə müvazinətləşdirmək imkanı verir.

Belə ki, bu sistem karbonun intensiv istehsalçılarını müvazinətləşdirmə layihələrinə qoşulmağa və sərmayə yatırtmağa, karbon kreditləri ilə alver etməyə və karbon-neytralçısı olmağa təşviq edir.

Beləliklə, karbon ticarəti qlobal istiləşmənin qarşısını alan əsas vasitələrdən biri kimi qəbul edilir. Bu sistem sənaye qaynaqlardan karbon emissiyasını azlatmaq və yenilənən enerji təşəbbüslərini təşviq etmək qabiliyyətinə malikdir.

## KALİFORNİYA ŞTATININ QANUNVERİCİLİYİ

Kaliforniya Ştatı karbon emissiyaları üzrə limit tətbiq etməkdə liderdir. Ştat buna vergilər vasitəsi ilə nail olur.

10 sentyaber 2018-ci ildə Kaliforniya Qubernatoru Cerri Braun Senatın 2045-ci il üçün Ştatın Karbon-Neytrallığını nəzərdə tutan qanun layihəsini (SB 100) imzaladı.

Braun ofisinin bəyənatı ilə, qeyd olunan qanun layihəsinin əhəmiyyəti kifayət qədər böyükdür, çünki uzunmüddətli məqsədə yönəlmişdir. Məqsəd təbii filizlərdən asılılığı aradan qaldırmaqdır. Eyni zamanda, qanun layihəsi iqtisadi vəziyyətin sağlamlaşmasına və təmiz enerji innovasiyalarının tətbiqinə imkan verəcəkdir.

Qeyd olunan qərarın praktikada necə işləyəcəyinə dair misallardan biri elektrik stansiyalarına qarşı təyin olunan öhdəlikdir. Öhdəliyə əsasən, Ştat ərazisində tikilən istənilən yeni stansiya yenilənən enerji qaynaqlarına – Günəş və ya külək enerjisinə əsaslanacaqdır.

Kaliforniyanın hazırkı Qanunvericiliyi böyük sənayeçilik müəssisələrindən karbon emissiyaları icazələrini almağı tələb edir. İcazələrin qiyməti, Hava Resursları Şurasının (Air Resources Board) hesablaması ilə, 1 ton üzrə 15 ABŞ dollarıdır.

Karbon kreditini almaqla Kaliforniya Ştatı karbon emissiyalarını başqa ştatlarda da müvazinətləşdirə bilər.

Karbon icazələri qiymətlərinə həm bölgə, həm milli, həm də qlobal səviyyədə təsir edə biləcək bir neçə amil mövcuddur.

## EMİSSİYA TİCARƏT SİSTEMLƏRİ (ETS)

Bir neşə beynəlxalq və milli orqan karbon kreditləri ilə ticarət etmək sistemlərini formalaşdırdı. Misal üçün, Avropa İttifaqı Emissiya Ticarət Sistemini (Emission Trading System) təsis etdi. Bu sonuncusu Avropa İttifaqı ölkələri üçün istixana qazları emissiyasını azaltmaq və iqlim dəyişikliyini xərclər cəhətindən əlverişli vasitə ilə qabaqlamaları baxımından olduqca mühümdür. Avropa İttifaqı tərəfindən yaradılan sözügedən sistem emissiyalarla ticarət üzrə dünyanın ilk ən iri bazarı idi və bu gün də, bu sahənin ən geniş bazarı hesab olunmaqdadır.

Avropa İttifaqı tərəfindən verilmiş direktivə əsasən, şirkətlər öz fəaliyyətlərindən irəli fələn karbonun həcmini monitorinq etməyə və bu məlumatı illik hesabatlarda əks etdirməyə borcludurlar. Həmin qanunla uyğunluq şirkətlərə Avropa İttifaqının emissiyalarla ticarət sisteminə qoşulmaq, karbon kreditlərinin alqı-satqı prosesində iştirak etmək fürsəti verir.

Emissiyalarla ticarətin oxşar sistemləri həmçinin Çində, Yaponiyada və Cənubi Koreyada tətbiq edilir – sadalanan ölkələr gələcəkdə vahid, Asiya-Sakit okean karbonu ilə ticarət sistemi təsis etməyi də düşünürlər.

Dünyanın bir nömrəli istixana qazları istehsalçısı olan Çin, $CO_2$ emissiyalarını 2060-cı il üçün sıfıra endirməyi planlaşdırır. Eyni zamanda, Çin hökuməti bir az bundan əvvəl öz Karbon Ticarət Sistemini də (Shanghai Environment and Energy Exchange) yaradaraq oxşar layihələri Pekində, Tandzianda, Çondzində, Quandonda, Hupeydə və Sençəndə də tətbiq etməyi planlaşdırır.

Çində Karbon Ticarət Sisteminin ilk fazası 2225 elektrik stansiyasını əhatə edəcəkdir. Həmin stansiyalar bir il ərzində 4 milyard ton karbon dioksidi atmosferə yayır və bu öz növbəsində Çinin milli emissiyasının təxminən 40%-ni təşkil edir.

## DİGƏR TƏŞƏBBÜSLƏR

Karbonun azalmasının bütün təşəbbüslərindən ən əhəmiyyətlisi 2015-ci il Paris Sazişidir. Amerika Birləşmiş Ştatları Donald Tramp Administrasiyası dövründə ondan ayrılsa da, Co Bayden prezident olan kimi qayıtdı.

Paris Sazişi icbari xarakterli beynəlxalq sazişdir, onu 196 dövlət imzalayır. Sazişin məqsədi qlobal istiləşməni 2 dərəcəyə qədər temperaturda məhdudlaşdırmaqdır. 1.5 olması daha yaxşı olardı. Belə olduqda Yer kürəsi sənayeləşmədən əvvəlki dövrün orta göstəricisinə qayıdardı.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Təşəbbüsü Hesabatında qeyd olunmuşdur ki, 40 milli və 25 alt-milli yurisdiksiya Dünya iqtisadiyyatının ¼-ni təşkil edir və onlar karbonun qiymətləndirmə təşəbbüslərində iştirak edirlər.

Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) bildirdi ki, karbon ticarəti beynəlxalq uçuşlar nəticəsində, limitdən artıq emissiya yayan ölkələr üçün də istifadə ediləcəkdir.

Qeyd olunan hadisələri müşahidə etmək üçün Carbon Trade Watch – platformu olduqca gözəl vasitədir[3].

[3] http://www.carbontradewatch.org/

## NƏTİCƏ

Qlobal istiləşməni dayandırmaq üçün dünya kəskin addımlar atmalıdır.

„Dünya Resurslar İnstitutuna“ görə, karbon ticarəti məhz belə bir addımdır. O, həm ictimai, həm də özəl sektor üçün mənfəətbəxş yoldur, lakin strategiya yalnız daha çox dövlət iştirak etdikdə müsbət təsir göstərəcəkdir.

Dünyada mövcud olan emissiyaların yarısından çoxu inkişaf etməkdə olan ölkələrdən çıxır. Həmin ölkələrin əhalisi iqlim dəyişiklikləri nəticəsində hədsiz zərərə məruz qalırlar.

Karbon Ticarət Strategiyalarına mümkün qədər çox ölkənin qoşulması məhz bunun üçün əhəmiyyətlidir. Milli və regional səviyyədə vahid qanunvericilik yaratmaq və mümkün qədər daha çox şirkətin karbon ticarət bazarının iştirakçısı olması lazımdır. Bu addım bir tərəfdən atmosferdə istixana qazları emissiyasını azaldacaq, ikinci tərəfdən isə iqtisadi inkişafı ləngitməyəcəkdir.

*Mənbə:*
*https://medium.com/illumination-curated/carbon-trading-a-quick-introduction-for-beginners-21ba28650ca2*

# HƏR KƏS İQLİM HAQQINDA DANIŞIR / SOSİAL-EKOLOGİYA TRANSFORMASİYASININ PERPEKTİVLƏRİ

***Klaus Diore*** *– Əmək, Sənaye və İqtisadiyyat üzrə sosioloq, Yenis Fridrix Şiller adına Universitetin professoru.*

Sənayeləşdirilmiş və inkişaf etməkdə olan ölkələr arasında $CO_2$ emissiyyaları qeyri-mütənasib şəkildə bölüşdürülmüşdür. Qeyd olunan meyara əsasən, "Birinci dünya" ölkələri arasında da bu kimi vəziyyət müşahidə edilir. Bununla belə, transformasiya ictimaiyyətin daxilindəki bərabərsizlik problemini də mütləq həll etməlidir, əks təqdirdə o məğlub olmağa məhkumdur.

„Dünya son həddə dayanır" – 2021-ci il Qlazqo İqlim Konfransından bir gün əvvəl BMT Baş Katibi Antonio Queтехереş tədbir iştirakçılarına bu həyəcanlı sözlərlə müraciət etmişdir. O, iqlim diplomatiyasının artıq hərəkət mərhələsinə keçməsinin vacib olduğunu vurğulamışdır. Korona pandemiyası dövründə, dünya müvəqqəti olaraq dayandıqda, karbon emissiyaları təxminən 5%-lə azaldı. Lakin emissiyaların miqdarı 2021-ci il üçün yenə də 2019-cu ildə təsbit edilən rekord göstəricilərə qayıtdı. Qlobal temperatur artımının sənayeləşmə epoxasının əvvəlindən bu günə qədər 1,5 dərəcəni keçməməsi hədəfi təhlükə altındadır. Ola bilsin ki, temperatur artımının 2 dərəcəli göstəricisi ümumiyyətlə məhdudlaşdırıla bilməsin. Vəziyyəti dəyişmək üçün Qlazqo bir şey edə bilmədi. İqlim dəyişikliyi üzrə bu gün əldə edilən bütün ölçülər qüvvəyə minsə belə, əsrin sonunda qlobal istiləşmə yenə də 2 dərəcədən çox olacaqdır. İnsandan qaynaqlanan iqlim dəyişikliklərinin nəticələri artıq göz qabağındadır. Son yarım əsr ərzində hava və iqlimlə bağlı fəlakətlərin sayı beş qatına çatıbdır.

Gözümüzün qarşısında baş verən prosesləri, təmayyüləri nəzərə aldıqda, sosial-iqtisadi perspektivlər haqqında sual yaranır. Bununla belə, iqlim dəyişikliyi üzrə Hökumətlərarası panelin tələblərinə – dayanıqlı inkişaf, qlobal inqilabın başlanılmasına – ən yaxşı şəkildə cavab verən ictimai önşərtlər və verilmişlər barədə düşünmək də gərəkdir.

İmkanları əldən verdik, yoxsa uğurlu transformasiyanın əsaslandırılmış perspektivi yenə də mövcuddur? Qarşınızda verilən cavab cəhdi ekoloji və sosial dayanıqlığın bir-birindən asılı olduğu tezisinə söykənir. Biri olmadan o birisi mövcud ola bilməz. Sosial aktyorlar transformasiya işində yalnız sosial və ekologiya dayanıqlığı hədəfləri arasındakı təzadı aşdıqda, onun öhdəsindən effektli şəkildə gəldikdə uğurlu olacaqlar.

## „QISQACLAR BÖHRANINDA"

Müasir cəmiyyətlər böhran modusunda, böhran rejimində fəaliyyət göstərirlər. İctimaiyyətin müəyyən hissəsi, ictimai fəaliyyətin müəyyən sahəsi ya mexanizmi həmişə böhrana meyilli, yəni müvəqqəti şəkildə pozulmuşdur. Hazırda böhranların sayı artmaqdadır. Belə ki, "gələcəyi dərk edə bilməməyin bir böhran kimi qəbul edilməsi və aşılması" heç də mənasız fikir deyildir. Gələcək böhranların qəbul edilməsi və aşılmasını növbəti pillədəki ictimaiyyətin inteqrasiyası forması kimi də müzakirə edə bilərik. Kapitalist cəmiyyətin ekspansiv dinamikası, göründüyü kimi, artıq elə bir həddə çatıb ki, qlobal ekspansiya tendensiyası dağıdıcı güclərin qarşıdurması ilə üzləşməli olur. Xüsusilə qədim kapitalist mərkəzlər, habelə böyük, inkişaf yolunda olan ölkələr, tarixi nöqteyi-nəzərdən yeni növ böhran yaşayırlar. Həmin böhranı mən iqtisadi-ekoloji "Qısqaclar böhranı" adlandırıram.

Bu kapitalizm şəraitində iqtisadi staqnasiyanın yenilməsi və ictimai münaqişələrin sakitləşdirilməsinin ən əhəmiyyətli vasitəsinin – bu günkü şəraitdə iqtisadi artımın ekologiya cəhətdən tamamilə dağıdıcı və destruktiv bir rola malik olduğu, habelə ictimai birliyin köklərini qazıması deməkdir. İqtisadi artımın destruktiv effektini böyük miqdarda emissiyalar və resursların intensiv mənimsənməsi şərtləndirir. İqtisadiyyat və ekologiya "qısqaclarının bir-birinə yaxınlaşması" cəmiyyət və təbiət arasındakı münasibətlərin pozulmasında ifadə olunur. Bu isə heç də adi böhran deyildir. Bu cür böhran bütün sosial sahələri və ictimai altsistemləri əhatə edir. Bundan irəli gələrək, mən böhranın, ona bais olan bütün səbəblərinin sərt ierarxiyalaşdırılmasını təklif edən yeni müəyyənləşdirməsinin tərəfdarıyam. Hazırkı böhran tarixən unikal bir hadisədir, çünki o, böyük ehtimalla, yeni geoloji dövrə – Antroposenə keçməkdən xəbər verir.

"Antroposen" məfhumu yeni geoxronoloji dövrdə bəşəriyyətin yer kürəsində gedən bioloji, geoloji və atmosfer proseslərinə böyük təsiri olduğunu göstərir. O, ikimənalı mesajdan ibarətdir. İnsan nəsli öz həyati şəraitlərini, həyat əsaslarını məhv edə bilər – bu pis xəbərdir. Yaxşı olan xəbər isə odur ki, biz insanlar təbiətlə dayanıqlı münasibətlər formalaşdıraq və yer kürəsindəki resurslardan, burda yaşayan canlılardan alət kimi istifadə etməyimizə son qoyaq. Cinslər müxtəlifliyini xilas edib-edə bilməməyimiz, planetin qızmasını dayandırıb-dayandıra bilməməyimiz ilk növbədə qlobal cəmiyyətlərin praktiki fəaliyyətlərindən asılıdır.

Əlbəttə ki, təbiət və ictimaiyyət arasında mövcud olan münasibətlərin pozulması, ilk növbədə, kapitalist iqtisadiyyatlarla bağlıdır. Bundan irəli gələrək, sosioloqların bir qismi, misal üçün Ceyson Mur, hesab edir ki, müasir çağımızdakı vəziyyəti təsvir etmək üçün ən uyğun kəlmə "Kapitalosen" olmalıdır. Kapitalizmin özünü də bir ekosistem kimi anlamalıyıq. Əmək sosiallaşdırılmasının yüksək səviyyəsinə görə. Kapital toplamağın təbii maneələri yenidən, bu dəfə daha güclü şəkildə üzərə çıxdılar. Buna baxmayaraq, sistem kapital toplamağa yenə davam etdi. Kapital toplamağın, akumulyasiyası böhranı on doqquzuncu əsrin iqtisadi çətinlikləri, iyirminci əsrin iqtisadi depressiyaları (1928-32, 1973-74) ilə müqayisədə həqiqətən də, böyük böhrandır. Akumulyasiyanın, toplamanın "böyük böhranları" kapitalist cəmiyyətinin bütün tərkib hissəsi olan altsistemləri "soyur". Onlar, yalnız və yalnız kapitalizmin əsas strukturunu qorumaq, xilas etmək, ömrünü əbədiyyən uzatmaq, bazarları məcburən genişlətmək, kapitalizmdən azad yeni məkanları zəbt etmək üçün sosial qarşılıqlı münasibətlərin bütün ansamblını alt-üst edirlər.

Hərəkətin, inkişafın mövcud forması tükənəbiləcək resursları olan planetimizdə aşılmaz hüdudlara çatır. Qlobal istiləşmə, resurslar və enerjidən get-gedə artmaqda olan istifadə yer kürəsini dramatik dəyişikliklərə doğru sürükləyir. Həmin bu proseslərin sayəsində planet, ən azı qismən belə, yaşamaq üçün yararsız vəziyyətə düşə bilər. Dəniz səviyyəsinin qalxması əvvəlcə kiçik adalara və sahilyanı bölgələrə təhlükə yaradacaq, bütün dünyaya deyil. O, yavaş-yavaş güc toplayaraq, öz xarakterini az-az göstərməyə başlayır. İqlim dəyişiklikyi, ilk mərhələdə, sezilmədən və sosio-coğrafi baxımdan diferensiallaşmış şəkildə hərəkət edir. İnsandan qaynaqlanan iqlim dəyişikliyinin əsas önşərti karbona əsaslanmış istehsalçılıq və erkən sənaye ölkələrindəki həyat tərzidir. Bu cür iqtisadi sistemin qlobal miqyasda yayılması isə yalnız ekoloji fəlakət bahasına mümkündür. Bundan irəli, gələrək, dünya hökumətləri hər hansı bir formada "Yeni Yaşıl Kursu" həyata keçirməyə can atırlar. 2050-ci il üçün bütün əsas sənaye dövlətlərinin iqtisadiyyatının tam dekarbonizasiyası baş tutmalıdır. Avropa İttifaqı ölkələrində daş kömür vasitəsilə elektrik enerjisi hasilatı və filiz yanacağına əsaslanmış mobilliyi nəzərdə tutan icbari hədəflər artıq mövcuddur. Bu dəyişikliyi mahiyyət etibarı ilə yalnız ilk sənaye inqilabı ilə müqayisə edə bilərik. O, ictimai həyatın bütün sahələri və sektorunu əhatə edir.

Yekunlaşdırmaq üçün deməliyik ki, insandan qaynaqlanan iqlim dəyişikliyinin məhdudlaşdırılması və yığılmış ekologiya təhlükəsinə nəzarət etməyin iki yolu var – ya iqtisadi artım öz dağıdıcı ekoloji

nəticələrindən ayrılmalı, ya da cəmiyyət elə transformasiya edilməlidir ki, toplum iqtisadi artımın labüd ehtiyaclarından yaxa qurtara bilsin.

## İQLİM ƏDALƏTİ DÖVLƏTLƏRARASI BİR PROBLEM KİMİ

Hazırda, iqlim dəyişiklikləri istiqamətində iqtisadi artıma ekoloji fəlakətlərsiz nail olmaq cəhdləri dominantlıq edir. Problemi hansı cəhdlərlə həll etmək istəsək belə sosial və ekolo hədəflər arasında gərginlikdən yayına bilməyəcəyik. İstixana qazları emissiyalarının ölkənin sosial-coğrafi cəhətdən yerləşməsindən, habelə milli cəmiyyətdə mövcud olan sinif mövqelərindən asılı olması nəzərə çarpır. Buna baxmayaraq əhəmiyyərtli bir faktı unutmamalıyıq – 2015-ci ildə yetkin əhalinin ən varlı onda birinin payına iqlim üçün zərərli emissiyaların 49%-i düşür, halbuki yetkin əhalinin qalan hissəsinin yarısının, ən kasıb qisminin payına emissiyaların yalnız 10%-i gəlir.

Bu asimmetriyanın arxasında iki bir-birilə əlaqədə olan çətinlik gizlənir və hər ikisi ədalət məsələsinə yönəlir. Onlardan biri müxtəlif ölkələr tərəfindən havaya buraxılmış emissiyalar arasındakı bərabərsizlik problemidir. 2015-ci ilin verilmişlərinə əsasən, Yer kürəsində bütün zamanlarda ifraz edilən emissiyaların ümumi miqdarının 26.3%-i ABŞ-ın, 23.4%-i isə Avropanın payına düşür. Çin (11.8%) və Rusiya (7.4%) onlardan xeyli geridə qalır. Lakin hazırkı illik verilmişlərə baxsaq mənzərə radikal şəkildə fərqlidir. Çin hər il 14 milyard ton istixana qazı ifraz edir və iqlimə təsir baxımından birinci yerdədir, Hindistan isə ABŞ-dan sonra üçüncü yeri tutur. Emissiyaları adam başı hesabladıqda tam fərqli verilmişləri əldə edirik. Adam başı hesabladıqda ABŞ vətəndaşı Çin vətəndaşından iki dəfə artıq istixana qazı hasilində iştirak edir. Eyni meyarla Hindistanın göstəricisi Almaniya Federativ Respublikası göstəricisindən altı dəfə yüksəkdir. Emissiyaların mütləq gücü ilə hesablanmış verilmişlər də, indiyədək müzakirə etdiyimiz rəqəmlərdən əhəmiyyətli dərəcədə fərqlidir. Məsələn, ABŞ-da, Lüksemburqda, Qətərdə və Səudiyyə Ərəbistanında yaşayanlar həmin o, ən varlı bir faiz insanlardırlar ki, Ruanda, Honduras və Tacikistanın yoxsul əhalisindən 2000-dəfə artıq emissiya hasil edirlər.

Bu cür qeyri-bərabər münasibətlər ədalət problemini yaradır və o, qlobal səviyyədə dövlətlər və təşkilatlar arasında müzakirə edilir. Bir tərəfdən iqlim üçün zərərli emissiyaların azalması ya cənubun böyük dövlətləri – əsasən Çin və Hindistanın – ən qısa zamanda öz iqtisadiyyatlarının işləmə qaydasını radikal şəkildə dəyişməsilə mümkün olacaq, ya da ikinci tərəfdən erkən mərhələdə sənayeləşmiş ölkələrdən iqlim dəyişikliklərini aradan qaldırmaq üçün zəruri xərcləri öz üzərlərinə götürmək tələb ediləcəkdir. Bu cür qarşılıqlı münasibət qlobal iqtisadiyyatın dekarbonizasiyasının qismən dəyişilməsi üçün planlaşdırılan cəhdləri daha da ağırlaşdırır. Emissiyalar imperiya rəqibləri və dövlətlərarası mübahisə predmetinə çevrildi. Avropa İttifaqı öz iqtisadiyyatının ən azı 2050-ci il üçün emissiyalardan azad edilməsini istəyir. Çin eyni hədəfi 2060-cı il üçün planlaşdırır. Avropa İttifaqı perspektivindən bu Çinin nəfinə qəbul edilməz rəqabət üstünlüyü deməkdir, Çin üçünsə bu imperiya keçmişinin ədalətli təzminatı kimi qəbul olunur. Emissiya limitləri Avropa İttifaqı ölkələri arasında da mütənasib şəkildə bölüşdürülməmişdir. Almaniya, İtaliya, Fransa və İspaniyanın ən yüksəkgəlirli ailə təsərrüfatlarının 10%-i Avropa İttifaqının bir yerdə götürülmüş, 16 nisbətən kasıb olan üzv dövlətindən çox istixana qazı hasil edir.

Bundan irəli gələrək, beynəlxalq meydanda iqlimin müdafiə məsələsinin həlli yolunda irəliləmənin bir elə də nəzərə çarpmaması o qədər də təəccüblü deyildir. Belə ki, erkən sənayeləşdirilmiş region ölkələrinin, yer kürəsi üçün təxirəsalınmaz dərəcədə vacib olan, dayanıqlı inkişaf inqilabında qabaqcıl rol oynamaları çox əhəmiyyətlidir. Almaniya Federativ Respublikasının zərərli emissiyaların yalnız iki faizini hasil etməsinə dair işarələr bizi sürətli transformasiya tələblərindən azad etmir. Ək-

sinə, iqtisadiyyat və cəmiyyətin sürətli, dayanıqlı dəyişməsinə keçməyin necə lazım olması presendentini məhz sənayeçi ölkələr yaratmalıdırlar.

## İQLİM DƏYİŞİKLİYİ CƏMİYYƏTDAXİLİ BİR MƏSƏLƏ KİMİ

İqlim dəyişikliyi istiqamətində hər bir fəaliyyət cəhdi ayrıca cəmiyyətlərdə sinif bərabərsizliyi tendensiyasını artırır. Cəmiyyətdaxili bərabərsizlik, iqlimin müdafiəsi üçün ölkələr arasında mövcud olan bərabərsizliyə nisbətən daha çox aktuallaşır. Qeyd olunan problem aradan qalxmayınca dayanıqlı hədəflərə nail olmaq işində güclü maneəyə çevrilə bilər.

İqtisadi artıma tənqidi yanaşan ədəbiyyatda varlı ölkələr tərəfindən emissiyaların ifraz edilməsinə tez-tez işarə edirlər. Buna paralel olaraq, varlı ölkələrin cəmiyyətləri arasındakı bərabərsizliklərə göz yummağımız ölümcül səhv olardı. Gəlirlər baxımından avropanın ən varlı daxili təsərrüfatlarının 10%-i Avropa İttifaqı Emissiyalarının 27%-i üzərində məsuliyyət daşıyır. Daxili təsərrüfatların ən kasıb 50%-i isə iqlim üçün zərərli qazların 26%-inin səbəbkarıdır. Ən varlı avropalıların bir faizinin payına per capita 55 ton C02 düşür. Bu orta göstəricidən 7 dəfə artıqdır. Bu cür fərqin başlıca əsası uçuşlardır. Bir yüksəkgəlirli vətəndaş öz səyahət uçuşları ilə emissiyaların miqdarını 40% artırır, 21%-lik artış isə şəxsi avtomobildən intensiv şəkildə istifadə etməyin üzərinə düşür. İqlim hədəflərinə çatmaq üçün istixana qazlarının miqdarı dünyada adam başı ildə ortalama 2,5 tona qədər düşməsi lazımdır. Ən varlı daxili təsərrüfatlar qeyd olunan göstəricini 22 dəfə aşırlar. Bu hamının həyat tərzini dəyişməli olması mənasına gəlir və varlı ailələr əlbəttə ki, böyük təzyiq altına düşəcəklər.

Avropa İttifaqı miqyasında emissiyaların miqdarı 1990-cı ildən etibarən 25% azaldı. Bu isə iqtisadi artımın və emissiyaların bir-birindən ayrıla biləcəyini göstərir. Lakin, qlobal perspektivdə emissiyalar çox az sayda azalır. Emissiyaların azalması isə daha çox azgəlirli ailələr və daxili təsərrüfatlara görədir. Qənaət əsasən orta və aşağı təbəqənin üzərinə düşür.

Deyə bilərik ki, yüksək sinifə məxsus olan bahalı məhsulun istehsalı, yüksək sinif istehlakı iqlim dəyişikliyinin başlıca hərəkətverici gücünə çevrildi. Bu cür istehsalat və istehlakçılığın nəticələri isə, həm milli, həm də qlobal səviyyədə kasıb, sosial cəhətdən müdafiə edilməyən təbəqələrə böyük təsir bağışlayır. Varlıların təmtəraqlı həyatları üçün sürətləndirilmiş iqlim dəyişikliklərindən və onun nəticələrindən kasıblar əziyyət çəkirlər. Aşağı sinifdən olan insanlar bir çox hallarda istehlakçılıqdan boyun qaçırırlar və bu iqlimə təsir etməyin orta göstəricilərində yüksək gəliri olan həmin o 10%-in artmaqda olan payını tarazlaşdırır. Yüksək təbəqənin təmtəraqlı həyat qaydası yalnız aşağı təbəqə nümayəndələrinin gəlirlərinin azaldığı və qiymətlərin artdığı üçün kəmərlərini sıxmalı olduqlarına görə mümkündür. Bundan irəli gələrək, deyə biləri ki, iqlim dəyişikliyi və ekologiyanın məhvinə qarşı mübarizə etmək eyni zamanda kasıblar və müdafiə olunmayanların nəfinə hərəkət etməkdir. Lakin, bu o demək deyil ki, sosial ədalət, dağıdıcı ekoloji təsir nəzərə alınmadan dayanıqlılıq üçün ön şərt olsun. İqlim dəyişikliyi və resursların israfı yalnız bölüşdürmənin eqalitiv şərtlərinə dəstək verdikdə dayandırıla bilər. Bu sosial dayanıqlıq yolu ilə ekologiyanın yeniləşməsini təşviq edəcəkdir.

## „QISQACLAR BÖHRANINDAN" ÇIXIŞ YOLLARI

İqlimi mühafizə etmək siyasəti iki sadə suala verəcəyi cavablarla qiymətləndirilə bilər.

İstixana qazları emissiyası, resurslar və enerjidən qlobal şəkildə istifadə etmək o həddə azalırmı ki, həmin azalma bizi ekoloji dayanıqlığa apara bilə? İctimai zənginlik elə bölüşdürüləcəkmi ki, ondan mümkün qədər çox insan və gələcək nəsillər istifadə edə bilələr?

Bu miqyasdakı dəyişikliyə nail olmağa çalışarkən dörd strateji yanaşmaya diqqət verməliyik. Mən onları bazar, texnologiya, dövlət və demokratikləşmənin strateji istiqamətləri, variantları, seçimləri adlandırıram.

Problemin həllinin bazar variantı hamaşlığı emissiyaların süni şəkildə tükənməsinə və məhdudlaşdırmasına yatırır. Hədəf $CO_2$ üçün ekvivalent qiymət verməyi nəzərə alır. Emissiyalarla ticarət etmək, emissiyalar vergisi insandan qaynaqlanan iqlim dəyişikliyinə qarşı mübarizənin əsas aləti kimi təmsil olunur. Problem ondan ibartədir ki, qeyd olunan alətin effektliliyi şübhəlidir. $CO_2$ qiyməti ucuzdursa, o vaxt alət vasitəsilə iqlim dəyişikliyinə təsir funksiyası işləməyəcəkdir; əgər qiymət yüksəkdirsə, o zaman sosial ədalət problemilə üzləşirik. Karbon ticarətinin çətinliklə nəzarət ediləcək prosesi bazar oyunçuları arasında kompromis sövdələşmələrə imkan verəcək, bu isə əslində karbon emissiyalarını azaldan deyildir. Bu kimi alətlərlə mənfi emissiyalara nail olmaq (Təbiətin hopdurduğundan az karbon hasil etmək) faktiki olaraq qeyri-mümkündür.

Bazara uyğunlaşdırılan alətlərin başlıca problemi onların nəticələrinin sosial cəhətdən korluğu və laqeydliyidir. Müxtəlif tədbirlərin görülməsinə baxmayaraq, ən ağır yük yenə də azgəlirli əhalinin üzərinə düşə bilər. Son on illər ərzində Almaniya əhalisinin maaşdan asılı olan hissəsinin ən yoxsul qismi, milli gəlirlərin artmasına baxmayaraq, yenə də uduzmuş vəziyyətdədir. İsitmə, elektrik enerjisi, kirayə, qida qiymətlərinin artması ilə vətəndaş üçün gəlirin sərbəst hissəsi azalır. Orta gəliri olan insanlar üçün belə, hansı ki, ayda 1578 avro maaş alır, karbon emissiyaları vergiləri əhəmiyyətli dərəcədə ağır yükdür, hətta o, gəliri olan başqa bir şəxsin yaşadığı ailədə yaşasa da belə. Beləliklə, bu cür siyasəti sosial cəhətdən qəbul etmək aşağı olacaq və sosial etirazlar da gözləniləcəkdir. „Sarıjiletlilərin" Fransadakı çıxışları və iqlim dəyişiklikliyi problemini təkzib edən ultrasağçıların elektoral uğuru hadisələrin məhz belə inkişaf edəcəyi imkanlarına işarə edir. İqlim ədaləti ilə bağlı problemin kafi həlli üçün yalnız bazar mexanizmlərindən istifadə etmək kifayət deyildir.

Texnoloji yanaşma bazar mexanizmlərini sürətlənmiş texnologiya dəyişiklikləri, inkişaf tələbləri ilə birləşdirir. Hər iki mexanizm Solutionism, yəni istənilən qlobal problemin istehsalat yaradıcılığı, texniki innovasiyalar və tələb-təklif qanunları əsasında həll edilə biləcəyinə inanan ideologiyaya əsaslanır. Dövlət, texnologiya dəyişikliyini dəstəkləyən əsas qüvvə və protaqonist kimi qəbul edilir. O, tədqiqatlar və inkişafa dəstək verməli və bununla iqlim üçün əlverişli innovasiyaları stimullaşdırmalı və müvafiq sərmayələri cəlb etməlidir. Lakin, texnologiya yanaşmalarının da öz struktural nöqsanları var. Texnologyaların əsasında iqlim dəyişiklikləri problemi öz həllini taparsa, gələcəkdə biz elektrikli avtomobillərlə səyahət edəcək, bitkilərdən hazırlanmış ət yeyəcək, evləri emissiyaları olmayan sementlə tikəcək, iqlimcəneytral sement yaradacaq, ancaq ictimai münasibətlərdə hər şeyi bu gün olduğu kimi saxlayacağıq. Texnoloji inkişaf həmişə "daha çoxuna can atan və mövcud resurslarla kifayətlənməyən" sistemi heç vaxt tarazlaşdıra bilməyəcəkdir. Həmin sistem bazarların genişlənməsi, durmadan böyüməsi və özəl mənfəət dayaqları üzərində dayanır.

Dövlətə istiqamətlənmiş yanaşma bazar mexanizmləri üçün yer qoymaqla yanaşı texnoloji dəyişikliklərə ümid bəsləyir. Qeyd olunan yanaşmanın əlavə əlaməti odur ki, o, dövlətin, pis bir istehsalçı olduğu təsəvvürünü aradan qaldırır. Kapitalizmin gücü nədən asılıdır? İnnovasiya qabiliyyətindən, hansının ki əsasını, öz intervensiyaları və resursları ilə nəzarətci dövlət yaradır. Dövlət dəstəyi olmadan keçmişdə heç bir əhəmiyyətli innovasiya və onun üçün vacib olan tədqiqatlar həyata keçirilməzdi. İqtisadçı Mariana Matsukato iddia edir ki, dövlət „iqtisadi inkişafın konyunktur silsiləsinin istənilən mərhələsində pələng rolunu oynamalıdır", özəl şirkətlər isə yalnız "evcil pişiklər" funksiyasına qane olmalıdırlar. İnnovasiya proseslərində dövlətin iştirakının realistik qiymətləndirilməsinə baxmayaraq, qeyd olunan yanaşmaların da nöqsanları var. Biznes üçün əlverişli dövlət intervensiyaları iri biznes oyunçularının öz gəlirlərini zəif kommersia aktorlarının xərcləri hesabına artırdıqları

strategiyalara qarşı çıxa bilmir. Buna dövlət aparatı və bürokratiya davranışları da əlavə olur – onlar fikirdən daşınmaq, siyasi konyunktura tabe olmağa alışmış, sənaye və struktural baxışlarda fantaziya qıtlığı yaşayırlar. Dövlət tərəfindən aparılan iqtisadi yenilənmə, hansı ki dekarbonizasiya hədəfinə yönəlmişdir, rutin şəraitində işləyən dövlət idarələri vasitəsilə çətin əldə olunan şeydir.

Ümumilikdə, adları çəkilən bütün yanaşmaların məqsədi iqtisadi artımın ekoloji nəticələrdən ayrılmasıdır, bu isə özünəməxsus bir qarşıdurma yaradır. Bir tərəfdən hər şey təcili şəkildə dəyişdirilməlidir. Dəyişməz olaraq yalnız kapitalis bazar iqtisadiyyatının təməl qaydası qalır. Həmin qaydaya görə, sonsuz toplama və fasiləsiz sürətli iqtisadi artım aşılmaz zərurət olaraq qalmaqdadır. Beləliklə, maliyyə kapitalizmi "təbii kapitalizmə" çevrilir və bunu yenməkdə "Qısqaclar böhranına" səbəb olan sistem mexanizmləri töhfə verməlidir.

"Kapitalist realizminin" qeyri realist şəkil alması, müxtəlif siyasi baxışlar perspektivindən tənqidə məruz qalır. Həmin siyasi baxışların məqsədi cəmiyyəti daimi toplama və iqtisadi artış təzyiqindən azad etməkdir. Mən bu, bir çox hallarda aydın olmayan şəkildə müəyyənləşdirilmiş mexanizmlərə demokratizasiya yanaşması adını verirəm. Bu baxışlar üçün ortaq cəhətlər odur ki, onlar iqlimin müdafiəsi və ekoloji dayanıqlığın başqa, postkapitalist tipli cəmiyyətə keçməsi üzrə razılaşırlar. Demokratizasiya yanaşması öz-özündə sosial yanaşma ilə bağlı problemlər oxunu da birləşdirir. Kapitalizmi, onun yalnız böhrana meyilli olduğu üçün tənqid etmirlər. Onun mənfi səciyyəsi WalMart prinsipi ilə fəaliyyət göstərməsidir. Qeyd olunan prinsip enerjieffektliyininin təmini nəticəsində qənaət edilmiş resurslar yenə də biznesin genişlənməsinə yatırılmalı olduğunu nəzərdə tutur. Müvafiq biznes praktikası bərpa etmə effektini yaradır, çünki gözlənilən, artmaqda olan istehlak gec-tez effektliyə əsaslanan strategiyaların ekoloji nailiyyətlərini şübhə altına alacaqdır. Beləki, ehtimal olunan "Yaşıl artım" sonunda yenə əvvəlki kimi dayanıqlı olmayacaqdır.

Bu kimi yanaşmalara qarşı, demokratizasiya strategiyası iqtisadiyyatı vətəndaş cəmiyyətinin planlaşdırılması və nəzarətinə tabe etməyi nəzərdə tutur. Üstünlük kollektiv mülkiyyətin yeni formalarına (kollektivlərə, əməkdaşlar cəmiyyətlərinə) və ortaq mülkiyyətin gücləndirilməsinə verilir. Bununla belə, üstünlük demokratik çərçivənin planlaşdırılması və siyasi innovasiyaları təşviq edən yanaşmalara verilir, transformasiya və dayanıqlıq şuraları yaradılır ki, cəmiyyətə dayanıqlı inkişaf haqqında biliyin formalaşdırılmasında və qərar alan şəxslərə daimi təzyiq göstərmələrində dəstək versinlər.

Demokratizasiya yanaşmaları, öz detallarına görə nə qədər də fərqli olsalar belə, hamısı dayanıqlığın yalnız istehsalatda və həyatda tətbiq edilən yolların fundamental dəyişiklikləri olmadan geriyə qaytarılmasının imkansızlığı qənaətindədir. Ekoloji cəhətdən təmiz istehsalın gerçəkləşməsi halında daha az materyaldan istifadə etmək lazım gələr, ancaq daha yüksək keyfiyyət əldə etmək vacib olardı. Bu məsələ öz həllini dayanıqlığın məqsədlərinin nəinki qiymət qoyma, habelə planlaşdırma və iqtisadiyyatın stimullaşdırılması sistemlərilə inteqrasiya edilməsində tapardı. Əməkdaşlıq, bərabərlik və ekologiya yükünü bərtərəf etmək iqtisadi silsilələr və dayanıqlı mobillik sistemlərinin inkişafına bənzər şəkildə təşviq ediləcəkdir. Bu cür tendensiya iş prosesinin texniki yenidən təşkilatlanmasını mümkün edər və bununla Tomas Mor tərəfindən təsvir edilmiş adanın –Utopiyanın standartı da həyata keçirilmiş ola idi: hamı üçün qısa tamştatlı iş günü, hansı ki, insana başqa fəaliyyətdə olması üçün də imkan verir.

## YEKUNLAŞDIRICI QEYD

Demokratizasiyanın bütün strategiyaları üçün "Kapitalist realizmində" çatışmayan bütün şeylər səciyyəvidir: bir baxışdan dəyişməz olan sistemlərin hüdudlarından uzağa baxmaq və gələcəyə utopizm və pozitiv baxışlarla təchiz olunmaqdakı cəsarət və cürətlilik. Lakin, demokratizasiya strategiyaları struktur xarakterli maneələrlə də üzləşməli olur, çünki onlar bu və ya başqa bir şəkildə hakim kəsilmiş güc münasibətlərinin radikal şəkildə dəyişdirilməsini, yenilməsini tələb edirlər.

Açıq şəkildə deyilməlidir ki, sadalanan yeç bir yanaşma müstəqil şəkildə dayanıqlı cəmiyyətə doğru yol tapa bilməz. Transformasiya xarakterli siyasəti dəstəkləyən kombinasiya yaratmaq lazımdır. Dumanlı gələcək şəraitlərində müxtəlif strategiyaları sınamaq məqsədli eksperimentlərə şərait yaratmaq son dərəcə əhəmiyyətlidir. Jurnalist Naomi Klayn radikal neosiyasət prinsiplərini bir yerə cəmləşdirdi. Bir tərəfdən o, "İqlim dəyişiklikləri ilə mübarizədə tarixi imkanları bizim əlimizdən kapitalizmin deyil insan təbiətinin aldığı" məsələsinə şübhə ilə yanaşmır. İkinci tərəfdən isə o sistemə uyğun dayanıqlığın uyğunsuzluğu barədə mücərrəd debatlarından yayınır. Radikal praqmatizm əhval-ruhiyyəsi ilə Klayn bizi kapitalizm və onun elitalarını növbəti dəfə sınamağa çağırır. Bu isə "Yeni Yaşıl Kursun" siyasi təkliflərin arxasında nələrin dayandığını yoxlamağı nəzərdə tutur.

Yekun olaraq, yeni həyatın əhəmiyyətli hərəkət gücü bazarlar deyil, dayanıqlı həmrəylik və əməkdaşlıq olacaqdır. Bu kimi baxış nə qədər çox yayılsa, gələcək cəmiyyətin yaxşı olacağı şansı da bir o qədər böyükdür.

*Mənbə: Green New Deals / Aus Politik und Zeitgeschichte 3-4/2021*

# „EKODİKTATURA YOLUNDAMI? – İQLİM ETİRAZI BİR DEMOKRATİYA PROBLEMİ KİMİ

***Yohanes Varvik*** *– Beynəlxalq Münasibətlər və Avropa Siyasəti üzrə professor, Martin Lüter adına Hale-Viteberq Universiteti.*

İqlim hərəkatını dəstəkləyənlər mühitində zorakılığın siyasi debatlar üçün legitim vasitə olmadığı aydın şəkildə göstərilməli idi. Kompromissziz iqlim siyasətinin avtoritarca həyata keçirilməsi, böyük ehtimalla heç bir nəticə verməyəcək və gətirəcəyi yeganə şey ictimaiyyəti parçalamaq olacaqdır. Qlobal ekosistemin dayanıqlığı və daha konkret, insanın fəaliyyəti nəticəsindən irəli gələn texnogenik iqlim dəyişikliyi, şübhəsiz ki müasirliyimizin mərkəzi problemlərindən birinə çevrildi. Başqa əhəmiyyətli məsələlərin aktuallığı və 2020-ci ilin əvvəlindən başlamış Covid 19 pandemiyasından səbəblənmiş iqtisadi vəziyyət və yaxud, 2022-ci ilin yazından etibarən baş alıb gedən Ukrayna müharibəsi bu baxımdan, fundamental şəkildə, heç nəyi dəyişmir. İqlim dəyişikliyinin müxtəlif modeli bizə, gözlənilən fəlakətə qarşı müvafiq, radikal tədbirlər görmək üçün yalnızca bir neçə il verir: „Ehtiyacımız olduğu radikal dəyişikliklər, sürətləndirilmiş templərlə həyata keçirilə bilər". Bu kontekstdə, diskurs konseptual cəhətdən haqlı olaraq dəyişdi: "İqlim dəyişikliyi" termini artıq aktual deyil, "İqlim böhranı" məfhumu daha məqbul oldu; indi "Fövqəladə iqlim vəziyyəti" ya "İqlim fəlakəti" barədə çox adam danışır. Alimlərin əksəriyyəti vəziyyəti dramatic olaraq qiymətləndirir və buna görə BMT-nin Baş Katibi Antonio Qutiereş 2021-ci ildə belə bir xəbərdarlıq yaydı: "Öz qəbrimizi özümüz qazırıq".

Bu disskursiv bir strategiyadır və onda "fatalizm və mütiliyin bir neçə qarışıq ünsürünün" izləri görünməkdədir. Lakin bir şeyi açıq şəkildə deyə bilərik: Sosioloq Stefan Leseniçin yazdığı kimi „Eksternləşdirilmiş ictimaiyyətin xəyalatları"[1] artıq təkzib edilə bilməz – onlara qarşı reaksiya vermək ya müdafiə refleksləri və real vəziyyəti inkar etməklə mümkündür, ya da reaksiyamızı "Radikal dəyişikliklərə istiqamətləndirməliyik".

2021-ci ilin sonunda hakimiyyətə gələn Qırmızı-sarı[2] Federal Hökumət, bu vəziyyətdə yeni kurs hazırlamalıdır. Məsələn, Bündnis 90/Die Grünen-in seçki proqramında belə deyilmişdi: „Biz əgər bu onilliyin əvvəlində ardıcıl şəkildə fəaliyyət göstərsək və sosial-iqtisadi transformasiya üçün müraciət etsək, iqlim fəlakətindən yayına və iqlim üçün mülayim mühitin qurulmasına öz töhfəmizi vermiş olarıq". Yaşıllardan Kanslerliyə namizəd olan Analena Berbok Seçkilər kampaniyasında bildirdi ki, "İqlim böhranına aktiv təsir bağışlamağı" (yalnız) gələcək Hökumət bacara bilər".

Lakin, bu kimi bəyənata baxmayaraq, hazırda Berbokun Xarici İşlər Naziri olduğu Hökumət, başqalarının ümidlərinə xilaf olaraq, "Dünyanın xilası" üçün radikal fəaliyyətlərə başlaya bilmir.

Beləliklə, bu cəhətdən qeyri-demokratik idarə sistemlərinin daha uğurlu olmalarına dair empirik dəlillər olmadıqda belə, meydana bir fundamental sual çıxır: iqlim dəyişikliyi kimi problemə qarşı cəld və effektli reaksiya vermək üçün liberal demokratiyanın siyasi vasitələri və alətləri varmı? Yoxsa iqlim dəyişiklikləri nəticələrinin aradan qaldırılması demokratiya üçün həddindən artıq çətinmi olacaq? Və əgər bu belədirsə: Yer kürəsinin, bəşəriyyət habitatının bir yeri kimi, xilası üçün başqa siyasi prioritetlərdən imtina etmək və maraqları demokratik şəkildə tarazlaşdırmaq yeganə yoldurmu? Yəni bir növ "Eko-diktatura" yolunumu tutmuşuq?

[1] Sosioloq Leseniçə görə "Eksternləşdirilmiş ictimaiyyət" elə bir sosiumu qeyd edir, hansı ki öz iqtisadiyyatının mənfi effektlərini yoxsul ölkələrə və onların gələcək nəsillərinə doğru yönəldirlər.

[2] İşıqfor Koalisiyası – Sosial-Dmeokratları (partiya rəngləri qırmızıdır), Yaşıllar partiyasını və Azad-Demokratları (onların bayraqları sarıdır) birləşdirən Hökumət koalisiyası.

Onlar üçün, hansılar ki 1970-ci illərdə nüvə müharibəsi təhlükəsi ya 1980-ci illərdə meşə massivlərinin məhvinin panik qorxusunu yaşayıblar bu hiss tanış ola bilər. Bu fəlakətin gələcəkdə mütləq baş verəcəyinə əmin olanlar ya ümidsizliyə düçar olar, ya da radikallaşmağa tərəf əyilir ki, burdan “Eko-diktaturaya” bir şey qalmır.

“Eko-diktatura” termini əlbəttə ki, mübahisəlidir və birmənalı şəkildə müəyyənləşdirilməmişdir. Bunun belə olması daha pisdir. Hazırda bir çoxu bu termini ekologiyaya yönəlmiş siyasəti ələ salmaq üçün istifadə edir. Adi anlayışla, bu iqlimin müdafiə olunmasının nəfinə dövlətin qanunları və qadağaları ilə bütün həyat sahələrində ölçülər götürmək istəyən bir idarə formasıdır ki, onun səyləri nəticəsində şəxsi azadlığımız məhdudlaşdırıla bilər. Lakin qarşıdakı məqalədə “Eko-diktatura” bir tərəfdən partiya mübahisələri sahələrini aşan ölçülər və ikinci tərəfdən də müəyyən hallarda qeyd olunan ölçülərin avtoritar, radikal ya zorakılıq vasitələrilə icra edilməli olduğu kimi başa düşülmüşdür. Biz hətta sistemin bu kimi dəyişikliyindən uzağıqsa belə, iqlim siyasəti mövzusu ətrafında, “Zeit” jurnalisti Tomas Şmidtin qeyd etdiyi kimi, siyasi meydanda müəyyən, “Mütləqə, kavzidindarlığa can atan” bir məntiq hazırlana bilər. Bu konfiqurasiyadan irəli gələrək, prosedurlar “əgər onlar uzunmüddətli perspektivdə iqlim müdafiə siyasətini doğrultmağı və gücləndirilməsini istəyirlərsə, partiya mübahisə-çəkişmələri, inzibati tələtümlər, səsvermə illuziyaları və qarşıdurmanın qıcıqlandırıcı əhval-ruhiyyəsindən yüksəkdə dayanmalıdırlar”.

Lakin, mütləq bilməliyik ki, siyasət bu gözləntiləri bir səbəbdən doğrultmaya bilər – “Dünyanın xilasedilməsi narativi” ilə danışan “başqa siyasi sahədə fəal ola bilməz”. Bu siyasi gündəlik üçün həqiqətən bir dilemmadır, „hansı ki, bəlli olduğu kimi, qorxu və məhvolma həddində həll edilə bilməyəcək, hansı ki gerçəkdir və o inkar edildikcə, onu inkar edən gücün nisbətində artır“.

“Cümə günü gələcək uğrunda” təşkilatın 16 yaşlı görkəmli fiquru – Qreta Tunberq də 2019-cu ilin payızında BMT-nin Baş assambleasına etdiyi xitabında həmin narrativi gətirmişdir. Cilovlaya bilmədiyi qəzəbdən savayı, onun sözlərində bir də gələcəyə qarşı qorxu da dilə gətirilmiş idi. Ancaq həmin qorxu ona, onu dinləmək üçün 193 ölkədən ora gələn qadın və kişidən daha çox sirayət etmişdi: “Siz özünüzün boş sözlərinizlə xəyalarımı və uşaqlığımı məndən oğurladınız. (...) bütün ekosistemlər pozulur. Biz nəslimizin kütləvi şəkildə kəsilməsi qarşısında dayanmışıq, sizsə yalnız pul və əbədi iqtisadiyyat artımı barədə nağıllar danışırsınız. Buna necə cəsarət edirsiniz!

Onun “Buna necə cəsarət edirsiniz” çağırışı, hələ də gənc olan 21-ci əsr lüğəti üçün tamamilə yeni bir cümlə idi, elə bir cümlə ki, aləmi yıxa bilərdi, əgər aləm buna hazır olsa idi”.

Nəinki gənclər, yaşlılar belə iqlim dəyişikliyini nəhəng təhlükə hesab edir. Onların bu təhlükə haqda yüksək və aydın səslə danışmaq üçün kifayət qədər əsasları var. Məhz bu fəallar və nümayişçilərin xidmətləri sayəsində iqlim məsələsi geniş ictimaiyyətin diqqətini özünə cəlb edə bilmişdir. Ancaq siyasətçilər və ictimaiyyət ümumiyyətlə necə reaksiya verir? Belə – iqlim dəyişikliyi ilə bağlı hazırlanan yarımçıq paktlarla, get-gedə daha da artmaqda olan hava yolçuluqları ilə, həyat tərzini bir o qədər də dəyişməməklə, beləliklə mənfi ekologiya nəticələrinin heç də kütləvi şəkildə azaldılmaması ilə, onları yaxşılaşdırmanın cüzi zəmanətləri və siyasi cəhətdən nəyi həll etməyin mümkün olmasına işarə etməklə. Bir sözlə – yenə də real siyasətdən danışmalı oluruq.

2022-ci ilin martında Rusiyanın Ukraynaya hücumundan sonra iqtisadiyyat naziri Robert Habekdən təhlükəsizliyin iqlimin müdafiəsindən əhəmiyyətli olub-olmamasını yəni daş kömürlə işləyən zavodların fəaliyyətlərinə davam edib-etməyəcəklərini soruşduqda, o: “Çox güman ki, bu elə belə də olacaq” demişdi“.

Siyasi debatlar üçün bu bizə nə kimi əsas verir? İqlimin müdafisəni daha prioritetli etməyimiz

üçün siyasi diskursun radikallaşdırılmasımı lazımdır? Bu harda olmalıdır? Bəziləri üçün aşağıdakılar uzağagedən perspektiv və provokasiya kimi görünsə də, 1960-cı illərin sonu və 1970-ci illərin əvvəlindəki tələbə hərəkatlarının bir qisminin radikallaşması üzrə müqayisəli təhlil bu işə müəyyən aydınlıq gətirə bilər.

## RADİKALLAŞMA BİR MÜDAFİƏ KİMİ

Əlbəttə ki "Cümə günü gələcək uğrunda", Qretta Tunberq və "Qırmızı Ordu Fraksiyasının" (RAF)[3] və onun təbliğatçısı – Ulrike Maynhoffun baxışları bir-birindən radikal şəkildə fərqlidir – hər iki hərəkatı və onların təbliğatçı liderlərini bir qazanda qaynatmaq anlaşılmazlıqlar yarada bilər və həmin anlaşılmazlıqlardan mütləq yayınmalıyıq. Beləliklə, müqayisəli müzakirə yalnız arqumentlərin sərtləşməsinə xidmət göstərir. Bu iki xanımı birləşdirən şey radikalçılıq və qəzəb, panika səpməyə yönəlmiş hərəkətləri və bütün siyasi elitaları küncə sıxmalarıdır. Ancaq həyat tərzimizlə qlobal ekosistemin yaşama potensialı arasındakı əlaqəni nəzərə alsaq, bunda Qreta Tunberqlə onun nəslini kim təqsirləndirə bilər? Ulrike Maynhofun faciəsi yalnız bu hörmətli jurnalistin və Hamburq cəmiyyətinin üzvünün siyasi debat vasitəsi kimi zorakılıq seçməklə "RAF" terrorçu təşkilatının aparıcı fuquru olmasında deyil – faciəsi, hər şeydən əvvəl, yaşadığı ölkəni düzgün qiymətləndirməməsindədir.

Onlar və başqaları üçün də Federativ Respublika 1960-cı illərin sonu, 1970-ci illərin əvvəlində faşizmə geri qayıtmaq həddində idi.

Osvensim nəinki valideynlər nəslinin mənəvi müflisləşməsidir, habelə bir də buna bənzər şeyin təkrarlanmaması və onun üçün də bütün mümkün vasitələrdən istifadə etmək indiki nəslin də şərtsiz öhdəliyidir. Bu baxımdan, atılmış addımlar, yeni, daha güclü qanunvericilik bazası yaratmaq kifayət deyildi, „Şturmerdən" „Bildə"[4] keçmək isə yalnız keçid mərhələsi ola bilərdi. Faşizmin labüd olduğunu hesab edən hər kəs istənilən vasitədən, o cümlədən zorakılıqdan belə istifadə etmək seçimində azaddır. Əlbəttə ki, bu sosial təhlil doğru deyildi və bir çoxu, o cümlədən solçu intellektuallar – Henrix Bölldən tutmuş, politoloq Volfqanq Abendrota və filosof Yurgen Habermasa qədər ona öz münasibətlərini bildirdilər. Ancaq RAF-ın qapalı dünyagörüşünə görə, onların zorakılığı daha bədtərindən yayınmaq üçün qabaqlayıcı (önləyici) zəruriyyətdən irəli gəlir. Bu bir çox insanın həyatına son qoyan faviəvi bir səhv idi.

Gəlin, indi, bütün bunları, bu günkü nəslin üsyançıları ilə müqayisədə müzakirə edək. Politoloq və fəal Tadzio Müllerin "Şpiqellə" müsahibəsində izah etdiyi kimi, ictimaiyyət zorakılıq və təxribat təhlükəsi qarşısında dayanır, dinc etirazlar nəticə verməsə, o zaman ümumi həyəcan təbili çalınacaqdır. Onun "demokratiyanın formalaşmış mexanizmləri artıq işləmir" cümləsinin başlıca mənası aydındır: „Etiraz hərəkatları verilmiş məsələyə diqqət yetirir və bir növ yanğın siqnalizasiyasını qururlar. Həmin siqnal ictimai fikri dəyişəcək və sonra artıq siyasətçilər hərəkət etməlidirlər. Ancaq onlar hərəkət etmirlər. Mexanizm sınıqdır". Bunun üçün nəyisə sındırmaq legitimlik qazanır – qazla işləyən elektrik stansiyalarının sabotajı ya maşınların məhvi – bu kimi davranışlar hazırda müdafiə vasitəsi hesab edilir. Hərəkatların çoxu qorxacaq və sakitləşəcəkdir, onların kiçik bir hissəsi yer altına keçəcək. Bu gün iqlimin müdafiəsinə qarşı çıxanlar "Yaşıl RAF" yaratmış olur və ya iqlim partizanlarının "Gələcək üçün sabotaj"-ın güclənməsinə imkan yaradır".

Bu kontekstdə 2022-ci ilin baharında Almaniyanın bir çox şəhərində "Son nəslin üsyanı" adı ilə başladılan etiraz aksiyalarına diqqət verməyə dəyər. Onlar iqlimin radikal şəkildə müdafiəsi məqsə-

[3] Radikal Solçu gənclər tərəfindən 1970-ci illər Almaniyasında formaşaldırdıqları terrorçu təşkilat.

[4] "Şturmer" – Nasistlərin həftəlik antisemin qəzeti. „Bild" – Antikapitalist dairələ qarşı düşmanca münasibət bəsləyən Alman tabloid nəşri.

dilə, aclıqlarla, blokadalarla, təxribatlar və ultimatumlarla qarşıya qoyduqları hədəfə çatmağa çalışırlar Dinc hərəkətlərdən, daş kömürlə işləyən elektrik stansiyalarının piketi kimi zorakılıq çağırışlarına keçid, fəaliyyətləri kifayət qədər ləngidir. Bu qrupun tonu "Cümə günü gələcək uğrunda2 hərəkatından kifayət qədər fərqlənir" – Frankfurter Allgemeine Sonntagszeitung"-un siyasi redaktoru Yuxtus Bender yazır və hərəkat üzvlərinin Kansler Olaf Şoltsa 2022-ci ilin əvvəlində verdikləri ultimatumdan sitatlar gətirir: əgər o, iqlimi daha çox müdafiə etmək üçün, nə etməyi planlaşdırdığını açıqlamasa, biz vətəndaş müqaviməti vasitəsilə insanları xilas etmək üçün mübarizə etməyi özümüzə borc bilirk. Belə olduqda biz, radikal ətraf mühiti qoruyan və yaşıl hərəkat olaraq, portlar və hava limanları kimi mühafizəsiz infrastrukturları, bu ölkədə dövrümüzün gündəlik həyatının və "pauzasının" bariz bir nümunəsi kimi dağıdacağıq. Bu fərqli ton "Son nəslin" iki fəalının 2021-ci ilin noyabrında açıq debatlar üçün Şoltsla görüşündə də eşidildi. Bunu 27 günlük aclıq qabaqlayırdı. Aclığı 2021-ci ilin Federal seçkilərindən bir gün əvvəl dayandırdılar. Şoltsla görüşmənin ön şərti bu idi. İqlimi mühafizə etmək üçün radikal ölçülər almayanlar milyonlarla, milyardlarla deyilsə əgər, insanın aclıqdan ölməsində iştirak edirlər. Şolts çalışırdı ki, iqlim cəhətdən neytral sənaye və cəmiyyətə keçmə barədə öz ideyalarına diqqət çəksin, ancaq fəallar bunu eşitmək belə istəmirdilər. Tadzio Müller, radikal qrupların cəmiyyətin rəğbətini qazanmaq və tərəfdaşlar əldə etməkdə maraqlı olmadıqlarını deyir: „İctimaiyyətin iqlim fəallığını müsbət qiymətləndirməsi işi həll etmir". Eyni zamanda politoloq radikallaşma barədə öz baxışlarını kifayət qədər kobud ifadə edir: "Hökumət iqlim haqqında qeyri-effektli paket təsdiq edir, halbuki milyonlar etiraz üçün küçələrə axışıblar. Bununla bizə həqiqətən də orta barmaqlarını göstərdilər. Cəmiyyət belə davam etsə, müharibə vəziyyətini seçəcək, müharibə etmək üçün sonradan qeyzə gələnləri deyil". Lakin, bu etirazın Diter Ruxt kimi tədqiqatçıları ənənəvi vətəndaş itaətsizliyinin dinc və xüsusilə də dinc olmayan təxribatla heç bir əlaqəsi olmadığını qeyd edir. Avtoritar və totalitar sistemlərdə sabotaj zəruri və legitim ola bilər. Ancaq demokratik sistemlərdə bu həddi yumşaldanlar yanlış yolla gedir və əhalinin güclü, təşkilatlanmış azlığının qəlbini ələ almağı heç cür bacarmayacaq".

„Son nəslin" bəyənatları öz radikal xarakteri ilə təşvişdoğurucu olsa da onların təhlilləri kifayət qədər ardıcıldır. Və burda, bir dəfə yenə 60-70-ci illərin radikal qrupları ilə paralellər aparıla bilər – əgər mənə və nəslimə, bütün bəşəriyyətə təhlükə varsa, o zaman bunu dəf etmək üçün hər şey etməyə, yəni təhlükəyə qarşı çıxmağa mənəvi haqqım çatır". Qarşı çıxma barədə danışarkən Eko-diktatura canatmalarından nə qədər uzağıq?

## ÇIXIŞLAR VƏ DALANLAR

Bu dalandan demokratik yollarla yaxa qurtara bilmək barədə düşünməyimiz vacibdir. Həqiqətən də, bu mərkəzi vəzifəni yerinə yetirməmək bizi avtoritarizmə gətirib çıxara bilər. Siyasi system və cəmiyyət iqlim dəyişikliyinə necə reaksiya verir, müəyyənləşdirir, fəlakət şəraitində demokratiya bir model kimi işləyəcəkmi. Ancaq demokratik diskursda çoxluq üçün mübarizədən başqa yol hansıdır?

Demokratik siyasi system gerçək "Eko-diktaturaya" qarşı həyata keçirilən istənilən möhtəkirliyə mətinliklə reaksiya verməlidir. İqlim hərəkatının xoş təsiri erkən mərhələdə, – RAF-ın birinci nəslinin solçu-liberal mühitinin etdiyindən də əvvəl – zorakılığın siyasi debatların legitim vasitəsi olmadığını göstərməlidir. İqlim siyasətinin kompromissiz, avtoritar şəkildə həyata keçirilməsi, müvafiq diktaturanın tətbiqini bir kənara qoysaq da belə, ictimaiyyəti dağıdar, nəsilləri bir-birinə qarşı qaldırar və bir çox günahsız qurbana səbəb olardı. Bu hətta iqlim siyasətində geriləməyi də gətirə bilər. Hazırkı radikallaşma təmayüllərinə cavab möhkəm real siyasətdir. Potsdam İqlim Təsiri Tədqiqat İnstitutu

direktoru, Otmar Edenhofer də bu haqda danışaraq, demokratik standartların qorunmasının tərəfdarı olduğunu deyir: „İqlimi xilas etməyə yalnız eko-diktaturasız nail ola bilərik, çünki diktaturalar həqiqətən də nəsə öyrətmək üçün deyillər, halbuki, innovasiyalar həyatımızda, postsənaye cəmiyyətə keçməmiz üçün həlledici rola malikdirlər. Demokratiya və bazar iqtisadiyyatı problemin həlli üçün ən yaxşı təsisatlardır. Burda cəhd və səhv prinsipi iş görür. Hamını nəzərə almaq lazımdır. Heç bir diktator bunu edə bilməz“ eyni zamanda, Almaniya siyasi elitasının buna cavab verə bilməyəcəyini düşünmək də səhvdir. Lakin, problemlər çox aydın görünür.

2021-ci ilin martında Federal Konstitusiya Məhkəməsi, 2019-cu il dekabr İqlim Mühafizə Aktı müddəalarının İqlim mühafizəsi üzrə Milli Hədəfləri və əsas qanunla uyğunsuzluq təşkil edirdi, çünki 2031-ci ildən etibarən istixana qazlarının azaldılaması müddəaları lazımınca təkmilləşdirilməmişdi. Bu gələcək nəslin fundamental hüquqlarının pozulması deməkdir. Qara-Qırmızı Federal Hökuməti bu qərarı alaraq, Avropa İttifaqı səviyyəsində iqlimin Xristian-Demokratlar və Sosial-Demokratlar Koalisiyasının rəmzi adını, hədəflərin eyni anda sərtləşməsini, “Yaşıl kurs” əsasında, 2021-ci ilin Federal seçkilərindən qabaq iqlimin mühafizəsinə göz gəzdirmək imkanı kimi qavradı. Əlbəttə getməyə hazırlaşan Federal Hökumət problemləri həll etmək üçün lazımlı alətlər haqda diskussiya aparmaq istəmirdi ya buna imkanı yox idi. Lakin, həmin hədəflər çatmağın yeni “İşıqfor” Federal Hökuməti tərəfindən həyata keçirilən ya planlaşdırılmış tədbirlərlə mümkün olacağı da qeyri-müəyyəndir. Həmçinin cəmiyyətin orta və uzunmüddətli perspektivdə kəskin ölçülər götürəcəyi və demokratik prosesdə bu və ya digər istiqamətdə təkrar dəyişikliklər etməli olacaqmı məsələsi qeyri-müəyyəndir. Bu cəhətdən kəskin siyasi qərarları almaq üçün müvafiq fikir iqliminin yaradılmasında sosial aktyorların dəstəyi xüsusilə böyük əhəmiyyət kəsb edir. Demokratik siyasət hələ də imtahanlardan keçməlidir.

Bəlli olduğu kimi, böyük ehtimalla, çətin dilemmaların həlli hələ qabaqdadır: real siyasət diskussiyadan: “siyasət imkan olanın incəsənətidir” aforizmi ilə qaçmağı sevir. Ancaq elmi təhlil doğrudursa, apokalipsis bir neçə ilə qarşısıalınmaz həqiqətə çevriləcəksə, o, sadəcə kifayət olmaya bilər. Bunun üçün bizə mümkün olmayanı etmək gərəkdir – sistemin radikal şəkildə dəyişməsi. Demokratiya siyasəti bunu bacarmasa, onda həmin yolu başqaları keçəcək və beləliklə “Eko-demokratiyaya” gedən yol da görünəcəkdir. Bu istiqamətdə ilk addım zorakılığı qeyd-şərtsiz qəbul etmək olacaq və yaxud, o, ən azı davranışın gerçək dəyişdirilməsi üçün etirazın xoş və legitim forması kimi qarşılanacaqdır. Bu isə cəmiyyət üçün müflisləşməyi ela etmək deməkdir.

Gənclərin radikal hərəkətlərinin şərtləndirdiyi dramatik situasiyanı nəzərə alaraq, yaşlı insanların öhdəliyində iqlim dəyişikliklərinə təməlindən fərqli reaksiyalar bəsləmək qalır.

İqlim böhranı ilə dinc vasitələrlə mübarizə etməkdən və oyunun demokratik qaydalarını nərəzə almaqdan başqa uğura gedən yol yoxdur – ancaq mətin şəkildə hərəkət etməliyik.

*Mənbə:*
*Almaniya Siyasi Təhsil üzrə Federal Mərkəzi jurnalından*
*„Ökologie und Demokratie / Aus Politik und Zeitgeschichte 21-22/2022*

# İQLİM ƏDALƏTİ VƏ GENDER ƏDALƏTİ

***Yana Aliets*** *– alman politoloqu, „Almaniyanın Ətraf mühit və Təbiətin Müdafiə Birliyi" fəalı. Almaniya Bundestaqının Nəqliyyat Komitəsində, Lüksemburq Fondunun Brüssel Şöbəsində işləmişdir.*

*İqlim ədaləti üçün mübarizə feminist olmalı,*
*irqçiliyə və kapitalizmə qarşı çıxmalıdır*

## FEMİNİST PERSPEKTİV NƏ DEMƏKDİR?

Feminizm dünya ətrafında mövcud olan siyasi qüvvələr, ideologiyalar və sosial hərəkatların geniş spektrindən ibarətdir. Həmin spektrdə birləşmiş qüvvələrin, ideologiyaların və sosial hərəkatların ortaq hədəfləri var – bu, cinsiyyətlər arasında siyasi, iqtisadi, sosial və şəxsi bərabərliyi müəyyənləşdirmək, təyin etmək və əldə etməkdir. Eyni zamanda, feminist hərəkatları gender stereotiplərinə qarşı, kişi və qadının bioloji cinsiyyətlərinə isnad edilən, qadınlara daha az güc, kişilərə isə daha çox məziyyət və imkanlar verən rollar və şəkillərə qarşı mübarizə aparırlar. Bir sözlə, feminist perspektiv cinsiyyət və gender üzərində qurulumuş güc münasibətlərini təyin etməyə, təhlil etməyə və tənqid etməyə çalışır.

Hazırda feminist hərəkatlar öz gündəliyində geniş interseksiyalı perspektivi əhatə edərək, irqi, sinfi, yaş, eibilist və digər ayrı-seçkilikləri nəzərə alır. Bununla feminist sosial təhlil daha məhsuldar olur və başqa ictimai hərəkatlarla daha da sıx əlaqələr yaradır. Feminist perspektivləri üçün xüsusilə ekologiya hərəkatları açıq olmuş və indi də açıqdır.Bununla isə, kapitalist aləmdə iqlim böhranı və ekologiyanın məhvinə qaşrı aparılan mübarizə daha da zənginləşir.

## QADININ VƏ TƏBİƏTİN İSTİSMAR EDİLMƏSİ ARASINDA HANSI NÖV PARALELLƏR APARILIR?

Kimsə elə hesab edə bilər ki, feminist və ekologiya uğrunda mübarizələr bir-bririndən tamamilə fərqlənir və yaxud, abort hüququ üçün və ailə zorakılığına qarşı mübarizənin ekoloji dağıntı, planetin həddindən artıq qızması və filiz yanacaqların yanması ilə heç bir əlaqəsi yoxdur. Ekofeminist nəzəriyyəsi və feminist siyasi iqtisadiyyat tədqiqatçılarına əsasən bu proseslər, əslində, bir medalın iki üzüdür. Qadınlar və təbii mühitin qısnanması, məhv edilməsi və istismarının bir çox formasını anlamağın yolu neoliberal və kapitalist iqtisadiyyatın təhlilindən keçir.

Neoliberal və kapitalist hasilatçılıq iki əsas aspektə söykənir: birincisi – sonsuz iqtisadi artımın zəruri olması və mümkün olması, ikincisi isə ödənişsiz və/ya ucuz işçi qüvvəsi tələbatına. Öz mahiyyəti etibarı ilə feminist və ekologiya hərəkatları bu iki konseptə qarşı mübarizə aparır, çünki planetdə nə təbii resurslar tükənməzdir, nədə ki əsasən qadınların haqqı ödənilməyən, əmək fəaliyyətləri.

Beləliklə, ətraf mühitin məhv edilməsi və qadınların istismarı arasındakı əlaqəni anlamaq üçün, onların bizim iqtisadi sistemimizdə, tükənməz və havayı resurslar kimi necə istifadə, istismar edildiklərini, onların kapitalist istehsalatına necə təməl etdirildiklərini görməliyik. Patriarxatlıq bir tərəfdən, qadınların daimi istismarı üzrə ideoloji dayaq rolunu oynayır, ikinci tərəfdən isə təbii resursların

istismarını istehsalatın və istehlakın artmaqda olan göstəriciləri və antroposentrik dünyagörüşü ilə doğruldur. Hər ikisini isə, daima mənfəət əldə etməyə can atan kapitalist sisteminin ideologiyası möhkəmlədir.

## İQLİM BÖHRANI BARƏDƏ FEMİNİST PESPEKTİV NƏ DEMƏKDİR?

Bu suala ilk və bir az da polemika xarakterli cavab belə olardı: iqlim böhranına kişilər səbəb olmuşdur. Planetin qızması və ekoloji destruksiya nəinki artışın, mənfəət və resurlara qarşı kapitalist canatmaların, habelə kişilər tərəfindən idarə edilən iqtisadiyyatların bir nəticəsidir də. İqtisadiyyatda yüksək vəzifələri əsasən kişilər tutur. Məsələn, istixana qazlarının artmasına böyük töhfə verən nəhəng şirkətlərin 100%-ni kişilər idarə edirlər.

Eyni şey siyasi qərarların qəbuledilmə prosesinə də şamil edilir: kişilər burda da çoxluq təşkil edirlər, qadınlar isə ölkələrin əksəriyyətində seçki hüququnu adlıqdan bəri 100 il keçsə də belə, hakim vəzifələrdə az sayda təmsil olunurlar. Bu hal nəinki dövlətlər, habelə BMT-nin İqlim Dəyişikliyi haqqında Konvensiyası və Partiyalar Konvensiyası kimi beynəlxalq danışıqlarda iştirak edən heyətlərdə də belədir. İqlimlə bağlı siyası proseslər qadınlara əlçatan olmadığı üçün iqlim siyasətində onların perpektivi nəzərdən kənarda qalır. Bu, qadınların kapitalist və patriarxal sistemlərdə öz-özlüyüdə daha yaxşı insan olduqları demək deyildir. Biz, qadınların siyasi və iqtisadi proseslərdə daha geniş təmsil olunduqları halda iqtisadiyyatımızın necə olacağını bilmirik. Ancaq prioritetlər və zərərin azalma strategiyaları, ola bilsin ki, başqa cür olardı.

Bu hal, iş ekologiyanın məhv edici davranışlarına gəldikdə, genderlə şərtlənmiş davranış modelləri ilə razılaşır. Almaniyada, İşveçdə, Norveçdə və Yunanıstanda enerjidən istifadə etmək üzrə müqayisəli araşdırmanın müəllifi kişilərin qadınlara nisbətən daha çox enerji israf etdiklərini müşahidə etdi. Bu əlbəttə ki, qadının əlində mövcud olan daha az iqtisadi imkanlarla izah edilir və eyni zamanda sinif məsələsini də göstərir. Ancaq, bunun səbəblərindən biri də bütün dünya miqyasında ətraf mühitin mühafizəsi problemlərinin qadınları daha çox narahat etməsidir. Bunun sayəsində onlar ətraf mühitin mühafizə prinsiplərilə uzlaşan məhsulları və həyat tərzini seçirlər. Bir daha təkrar edirik ki, bu, qadınların romantikləşdirilməsi və ideallaşdırılması, qadının ətraf mühitin qeydinə “təbiətən” qalması demək deyildir. Ancaq bununla qadınların tərbiyə edilmə metodunun nə qədər fərqli olmasını görmək maraqlı ola bilər. Təbiətə və ətraf mühitə qarşı belə həssas olmaları məhz tərbiyələrindən irəli gəlir.

Lakin iqlim böhranı və qadınların sıxışdırılması arasında ən əhəmiyyətli əlaqə qlobal istiləşmə nəticələrindədir. İqlim böhranının fəlakətli nəticələri çox cürdür: dəniz səviyyəsi, quraqlıqlar və su daşqınları, təbii fəlakətlərin sayının artması, su qıtlığı və bir çox canlının nəslinin tükənməsi. Bu hadisələrin hamı üçün fəlakət olduğunu düşünərsiniz. Ancaq biz bunun belə olmadığını bilirik. İqlim böhranından ən böyük nəsibini ən qısnanmış və müdafiə olunmamış insanlar alacaqlar: dəniz səviyyəsi Banqladeşdə, Nirelandda və Danimarkada eyni cür qalxacaqdır. Ancaq əgər Niderland və Danimarkanın siyasi stabilliyi sədlər və alternativ yaşayış yerləri salmaq imkanı verirsə, Banqladeşdəki xalq elə batacaqdır ki, kömək edəni belə olmayacaqdır. Bu gerçəklik hazırkı ierarxiyalı və ədalətsiz qlobal aləmdə bizim qarşımızdadır.

Genderin sosial kateqoriyaları haqqında da eyni şeyləri söyləyə bilərik. İqlim dəyişiklikləri ərzində qadınları ölüm 14 dəfə daha artıq təhdid edir və həqiqətən də iqlim səbəbindən qaçqın düşənlərin 80%-i qadındır. Bundan əlavə, – və ən əhəmiyyətlisə də elə bu ola bilər, – dünyada kiçik fermermərin əksəriyyətini qadınlar təşkil edirlər. Belə ki, münbit torpaqdan iqtisadi cəhətdən ən

çox asılı olanlar da onlardır. Həmin torpaqlar isə, bir çox hallarda, ətraf mühitin məhv edilməsindən irəli gələn dəyişikliklərə alışmaq problemi yaşayan regionlarda yerləşir. Gələcək iqlim xaosunda torpağı işlətmək daha artıq etibarsız olacaq və bu qadınları cəmiyyətin ucqarlarına tərəf qovur. İqlim dəyişiklikləri, az qüdrətə, hüquqa və pula sahib olan qadınları, xüsusilə də Qlobal Cənubda, cəbhənin ön xəttinə qoyur.

Seksist ayrı-seçkilik və təbiətin istismarı arasında bir əlaqə yenə var: hər iki halda bizim, sağlam və ləyaqətli insanlar kimi, orqanizmimizi labüd və daimi təhlükə təhdid edir. Feminist hərəkatlar çoxdandır ki, kişi olmayan bədən üçün patriarxal və seksist davranışının nə qədər təlükəli olduğu barədə danşırlar. Qadınlar kişilər qədər bu günün özündə də sərbəst və təhlükəsiz hərəkət edə bilmirlər. İqlim böhranı nəticələri, hazırda nə qədər mücərrəd kimi görünsə də, bədənimizə, həyatımıza təhlükə yaradacaqdır. Bunun üçün də feminist hərəkatlarından ibrət almalı və iqlim böhranından irəli gələn problemləri şəxsi problemlər kimi görməliyik: bu başqa yerdə və başqa vaxt olan deyil – iqlim böhranı hazırda burda və indi baş verir – başımıza gəlir. Ona texniki, rasional və intellektual yanaşmağı unutmalıyıq – o fiziki və əllə toxunulacaq bir hadisədir və bizi indi və burda təhdid edir.

Qərəz (Xülasə), iqlim böhranı öz-özlüyündə ekoloji problem deyil, bəşəriyyət qarşısında dayanan ən böyük ictimai məsələsidir, hansı ki, sinfi, irqi və gender bərabərsizliyini gücləndirir.

## PROBLEMİN HƏLLİNİN YANLIŞ YOLLARI: YENİ YAŞIL KURS VƏ ULTRASAĞÇI MİLLİYYƏTÇİ EKOLOQÇULAR

Problemin həllinin elə yolları da var ki, onlar bizi karıxdıracaq və hamımızı məhvedici nəticələrə gətirib çıxaracaqdır. Nəzərə almalıyıq ki, iqlim böhranı mahiyyət etibarı ilə ictimai böhrandır və qlobal istiləşmənin səbəbləri və nəticələrinin feminist perspektivlərinə malikdir.

İlk növbədə, genişmiqyaslı debat "İqtisadiyyatın yaşıllaşdırılması" haqda gedir. O daha çox kütləvi yaşıl investisiyanı vurğulayır və bununla iqtisadiyyatımız və ictimaiyyətimiz üzərində karbon dioksidin izlərini azaltmağı düşünür. Filiz yanacağını yenilənən enerji, sənayelər əvəz etməli, sənayelər istehsal zəncirlərini yaşıllaşdırmalı və xalq öz davranışlarını ətraf mühitin mühafizəsi prinsiplərinə uyğunlaşdırmalıdır. „Yaşıl kapitalizm" bizə iqtisadiyyatı yeni sərmayələr və işlə təmin imkanları ilə artıracağı vədini də verir. O, ətraf mühitin məhvinə böyük diqqət ayırır, lakin cəmiyyətlərin sosial cəhətdən statifikasiyasından həm milli, həm də qlobal səviyyədə imtina edir. „Yaşıl kapitalizm" problemin həllinin sürətli yollarını, onun səbəbləri və nəticələri barədə düşünmədən, axtarır.

Bununla belə, iqlim böhranın səbəbi daimi mənfəətə, resurslara və aşağı əmək haqqına yönəlmiş kapitalist və neoliberal iqtisadiyyat olduğu üçün, bütün bu strategiyalar ətraf mühitin məhvinin köklərini aradan qaldıra bilməyəcək və beləliklə, məğlubiyyətə məhkumdur. Heç bir iqtisadi artım resursların (hədsiz dərəcədə) istifadəsindən azad deyil və həmişə mənfəət və zənginliyin ədalətsiz bölüşdürülməsini gücləndirəcəkdir. Özümüzü aldadaraq bu problemin həllini, ictimai əlaqələr və münasibətləri nəzərə almadan, iqlim dəyişikliklərini müşaiyət edən bərabərsizliyi təkzib edərək, yalnız iqtisadiyyati yaşıllaşdırmaqda görməyək. "Yeni Yaşıl Saziş" mövcud böhranı daha da pisləşdirə bilər.

Bu bizi ikinci səhv yola gətirib çıxarır. Sağçı hərəkatların yüksəlməsi biz soçular üçün böyük problem olaraq qalır. Faşist partiyalar artıq hakimiyyətin başına keçə bilmişlər və onların sayı daha da arta bilər. Bunun üçün iqlim böhranına qarşı onların münasibəti get-gedə daha da böyük əhəmiyyət kəsb edir. Hazırda ultrasağ partiyalar və hərəkatların əksəriyyəti iqlim böhranını – insandan qaynaqlanan qlobal istiləşmənin elmi faktını təkzib edir. Ekologiya və iqlimlə bağlı ultrasağçıları tənqid

etmək üçün böyük səylər göstərmək olduqca əhəmiyyətlidir (Necə ki, irqçi, patriarxal və qeyri-humanist konsepsiyaları tənqid etmək üçün). Hakimiyyətə gəlmiş ultrasağçıların qlobal istiləşmədən yayınmaq və onun dayandırılmasıması üçün heç bir şey etməyəcəklərindən deyil, əksinə, problemi daha da kəskinləşdirəcəklərindən qorxmalıyıq. Bunun ən bariz nümunəsi ABŞ Prezidenti Tramp tərəfindən Paris Sazişininin tərk edilməsidir.

Lakin iqlim dəyişikliyinin ultrasağçılar tərəfindən gerçək təhlükə kimi görülməsi də problem yarada bilər. Bu ona görə böyük problemdir ki, iqlim dəyişikliyinin öhdəsindən gəlmək üçün ultrasağçılar öz milliyyətçi, faşist, irqçi və mizogen dünyagörüşləri ilə uyğunlaşdıracaqlar. Biz iqlim böhranı ilə mübarizədə müdafiəsizləri daha da pis vəziyyətə salacaq siyasətdən çəkinməliyik. Biz bu problemin ultramilliyyətçi və eqoist yaşıl „Həll yollarından“ qorxmalıyıq. O yalnız imtiyazlıları və güc sahiblərini müdafiə edəcəkdir. Bu isə bizə iqlim böhranının həllinin feminist, ayrı-seçkiliyə qarşı və antikapitalist yollarının gərək olduğunu göstərir, faşist və ya sadəcə yaşıl yollarının deyil.

## NƏTİCƏ: BİZƏ İQLİM BÖHRANI ÜZRƏ İNTERSEKSİYALI PERSPEKTİV LAZIMDIR

Siyasi problemlər haqda interseksiya baxışını nəzərə almaq, bir-birindən fərqli, ancaq qarşılıqlı əlaqədə olan ictimai gücləri və hakimiyyət strukturlarını göstərəcəkdir. Biz, prtoblemin bir hissəsinin həlli halında, onun əksər hissəsinin dəyişməz qalacağını ya pisləşəcəyini yaxşı anlayırıq. Onun üçün də problemin qismən həlli cəhdləri nəticəsiz qalacaqdır. İqlim böhranında biz onu müşayiət edən hadisələri də nəzərə amalıyıq – iqlim böhranı nəticələrinə qarşı ən müdafiə edilməz insanlar demokratik və ictimai imkanlar qıtlığına məruz qalırlar. Məhz bunun üçündür ki iqlim ədalət hərəkatları: “İqlim deyil, sistem dəyişikliyi!”-ni tələb edirlər.“

Mahiyyət etibarı ilə, iqlimin məhvinə qarşı mübarizə antikapitalist ya daha dəqiq, feminist və ekososialist olmalıdır. Beləliklə, dərin və radikal iqtisadi dəyişikliklərə ehtiyac var, zira kapitalist sistem özünün iqtisadi disbalansı və ictimai bərabrəsizliyi ilə, problemin həlli üçün elə yollar təklif etməz, hansı ki, ekoloji məhvdən, sosial istismardan və iqtisadi dəliliyin xətalı dairəsindən bizə nicat gətirsin.

Əgər çoxşaxəli və bir baxışdan qarışıq perspektivlərdən imtina edə bilsək, problemin (və onun həlli yolunun) yalnız ayrıca hissələrini görə biləcəyik. İndiyədək səsləri eşidilməyənlərin səslərinin eşidilməsi üçün böyük səy göstərməliyik. İqtisadiyyatın kiçik sektorunu yaşıllaşdırmağı nəzərdə tutan ya cəmiyyətin yalnız kiçik bir hissəsinə mənfəət verən həlim siyasətdən imtina etməliyik. Neoliberal və patriarxal sistemin təməlində dayanan normalara, paradiqmalara və dəyərlərə həmişə şübhə ilə yanaşmalıyıq.

Bu asan olan deyildir. Bu ən çətin, ancaq kapitalist istismardan, ekoloji məhvdən və ictimai ayrı-seçkiliyin bütün formalarından bizi xilas edəcək yeganə yoldur.

*Mənbə:*
*2019-cu il 16 martda Kopenhaqendə “Dəyiş, Daminarka!” təşkilatı tərəfindən keçirilən konfransda “ İqlim dəyişikliyinə qarşı – Avropa və dünyadaq qırmızı-yaşıl dəyişmə“ başlıqlı məruzənin qısa variantı.*

# DAYANIQLIQ VƏ DEMOKRATİYA

***Elke Zeefrid** – Aaxen Universitetinin Yeni Dövr Tədqiqatları İnstitutu professoru.*

"Dayanıqlı inkişaf" 1980-ci illərdən etibarən həmişə yeni məqsədlər və dəyər təsəvvürləri ilə əlaqələndirilir: Sülh, qlobal və nəsillər ədaləti, vətəndaş iştirakı. Bu cür geniş model liberal demokratiyanın boynuna əlavə yük qoyur.

Dayanıqlıq məfhumu zaman keçdikdcə siyasi imperativə çevrildi. Alman demokratiyasında heç bir partiya, bir hədəf kimi, dayanıqlı inkişaf əleyhinə, danışmır. Bu termin gələcəyə səmtləşməyə işarə edir və ekoloji, iqtisadi və sosial maraqlar arasındakı tarazlığı qoruyur, habelə təhlükəsizlik, ədalət dəyərlərilə, qlobal məsuliyyət duyğusu ilə əlaqələndirilir.[1] Bu isə, ətraf mühitin mühafizəsi və inkişaf siyasəti xarakterli tədbirlərini, fəaliyyətlərini legitimləşdirməyə imkan verir. Lakin, son illərdə, ekspertlər və ətraf mühitin mühafizəsi hərəkatlarında, bir idarə forması kimi demokratiyanın, dayanıqlı inkişaf üçün iqlim siyasəti ölçülərini hazırlamaqda lazımınca mətanətli və gələcəyə yönəlmiş olması barədə şübhələr artmaqda idi. Demokratiya legitimliyin yüksək keyfiyyətini təmin etsə də qərar alma işində ləng tərpənir. Bununla belə, o, məhdud vaxt içərisində fəaliyyət göstərdiyi üçün, yalnız bir seçki silsiləsi müddətincə davam edir. İkinci tərəfdən isə dayanıqlığın uzunmüddətli və xüsusi hədəflərinə yönəlmiş konsepsiyaya tam başqa bir ritm gərəkdir. Demokratların ətraf mühitin mühafizəsilə bağlı son dərəcə mürəkkəb və aktual problemləri həll etmək qabiliyyətlərinin olmadığı üçün, "Bədbin mövqedə" bu ikisi arasında "fundamental uyuşmazlıq" da guman edilir.[2] Dayanıqlığa bir növ demokratiyadan daha çox əhəmiyyət verildiyi üçün, ola bilsin ki, ekspertlər hökuməti və ya ekoavtoritar ölçülərin götürülməsi barədə şirnikdirici fikirlər yaransın.

Aşağıdakı məqalə alman demokratiyasında dayanıqlıq diskursu genezisini beynəlxalq kontekstdə müzakirə edir və 1970-ci illərdən bu günə qədər – "Dayanıqlı inkişaf üzrə konsepsiya necə formalaşmışdır?", "Bu istilaha verilmiş dəyər və qayələri kim aşıladı?" "Bu hansı dmeokratik praktikaları ilə əlaqələndirilmişdi?" – kimi sualları cavablandırır.

## "BÖYÜMƏNİN SƏRHƏDLƏRİ"

Təxminən 1970-ci illərdə Qərb sənaye cəmiyyətlərində insan və təbiət anlayışı fundamental şəkildə dəyişdi.[3] Bu hadisə özünü yeni, sürətlə yayılan bir konsepsiyanın tətbiqində ifadə etmişdir: Mühit və bizi əhatə edən aləm. Təbiəti müdafiə edən təşkilatlar 1970-ci illərə qədər verilmiş təbiəti – landşaftı, bitkiləri, heyvanları qoruyub saxlamağa çalışırdılar. İkinci tərəfdən isə "mühit" məfhumu ön plana çıxdı. O, insanı dolanışıq mənbəyi ilə təmin etmək məqsədini güdürdü. O vaxt üçün, həmin məfhum sənaye cəmiyyətində ətraf mühiti mühafizə edən siyasəti yaratmaq üçün istifadə edilirdi. Bundan əlavə,

[1] Vgl. Elke Seefried, Die Erfolgsgeschichte der Nachhaltigkeit, in: Frankfurter Allgemeine Zeitung, 6.9.2021, S. 7. Der Beitrag basiert auf dem Leibniz-Verbundprojekt "Geschichte der Nachhaltigkeit(en): Diskurse und Praktiken seit den 1970er Jahren" (Institut für Zeitgeschichte München-Berlin, Universität Augsburg, Herder-Institut für Historische Ostmitteleuropaforschung Marburg und RWTH Aachen). Ich danke Manuel Rivera (IASS Potsdam) und dem IASS, an dem ich 2019 als Fellow weilte.

[2] Im Überblick Basil Bornemann/Henrike Knappe/Patricia Nanz, General Introduction. Democracy and Sustainability, in: dies., (Hrsg.), The Routledge Handbook of Democracy and Sustainability, London 2022, S. 1–18, Zitate S. 2.

[3] Vgl. Patrick Kupper, Die "1970er Diagnose". Grundsätzliche Überlegungen zu einem Wendepunkt der Umweltgeschichte, in: Archiv für Sozialgeschichte 43/2003, S. 325–348.

ABŞ və Qərbi Avropada ətraf mühiti mühafizə etmək üzrə yeni qruplar ortaya çıxdı. Həmin “Ekologiya inqilabı“-nı[4] müəyyənləşdirən amillər hava və suyun çirklənməsi, Yer kürəsi haqda biliyin artması və alternativ mühitdə yaşayan imkanlı cəmiyyətə qarşı get-gedə artmaqda olan tənqid idi.

“Böyümə sərhədləri” haqdakı araşdırma iqtisadi böyümənin ekologiya cəhətdən tənqidinin yayılmasında və dayanıqlıq konsepsiyasının ərsəyə gəlməsində mərkəzi rol oynadı.[5] Araşdırmanı olduqca nüfuzlu bir qurum – qərbli alimlər və elmlər təşkilatçıları dairəsi – Roma klubu sifariş etmiş idi. Alimlər tərəfindən yaradılmış, kompüterə əsaslanmış model belə bir nəticəyə gəldi ki, Yer kürəsi iqtisadi böyümə hüdudlarına 2100-cü ildə çata bilər. Dünya əhalisinin və sənaye hasilatının eksponensial böyüməsi daha çox xammal və qida resurslarından istifadə etmə, bununla belə ətraf mühiti çirklətmə ehtimalını artırır. Ekoloji vəziyyəti islah etmək baxımından çıxış yolu kimi qlobal tarazlıq elan edildi. Qlobal tarazlığa əhaliyə sərt nəzarət və iqtisadi böyümədən imtina etməklə nail olunmalıdır. Araşdırma iqtisadi böyümə və əhalinin artmasından imtina etməyi elmi səviyyədə əsaslandırdığı üçün, eko-avtoritar səciyyələri də əhatə edirdi.[6] İqtisadi böyüməyə qarşı tənqidi münasibət bəsləyən və istiqamət kimi götürülən “Dünya sistemi”, araşdırmada dayanıqlı kimi müəyyənləşdirilmiş idi. Beləliklə, bu termin Meşə təsərrüfatının dar məfhumundan uzaqlaşaraq (keçmişdə termin əsasən meşədə dayanıqlı məhsuldarlığı, kəsilən və yeni bitmiş ağaclar arasındakı balansı qeyd edirdi) tamamilə fərqli, çoxcəhətli məzmun kəsb etdi[7].

Araşdırma resursların tükənə biləcəyi və sənayenin böyüməsi ilə şərtləşən ekoloji nəticələr haqda elmi və siyasi debatlara səbəb oldu.[8] Bu həmçinin iqtisadi böyümənin məqsədinə də öz təsirini göstərdi. İqtisadi böyümə yüksəlişi dövründə rifahın və tərəqqinin mərkəzi işarəsinə çevrildi. „Böyümə sərhədləri” konsepsiyasının güclü təsirinin səbəblərindən biri o idi ki, kompüter modeli tezislərə yüksək elmi legitimlik verdi. Araşdırmanın xanım müəllifləri həmçinin böhran ssenarisinin eskalyasiyası üzərində də iləyirdilər. Bu, müvafiq reaksiyaları sürətlə, tezliklə üzərə çıxarmaq üçün belə edilirdi. Bundan əlavə, 1973-cü ilin ilk neft böhranı resursların tükənə biləcəyi proqnozlarını təsdiqlədi. Lakin, araşdırma kəskin şəkildə tənqid edildi: iqtisadiyyatçılar iqtisadi böyümənin rifah və iş yerlərini təmin etmək üçün zəruri olduğunu vurğuladılar. Qlobal cənubdan olan alimlər iqtisadi artımdan ümumiyyətlə imtina etməyin inkişaf etməkdə olan ölklərin gələcəyinin müstəmləkələşdirilmək olacağını məyusluqla qeyd etdilər. Həmin dövrdə Şimal-Cənub beynəlxalq münaqişəsi fon yaratmağa başlayırdı və onu dekolonizasiya prosesi daha da kəskinləşdirirdi. Cənub hökumətləri daha çox ədalətli “Yeni Dünya Nizamı”-nın tətbiq edilməsini tələb edirdilər. „Böyümə sərhədləri” haqqındakı debatlarda, qlobal mühitin müdafiə və inkişaf məsələlərinin, ona qədər sadəcə qarşılıqlı əlaqədə olduqları düşünüldükləri halda, daha da sıx şəkildə bağlı olduqları məlum oldu. 1970-ci illərdən etibarən Dayanıqlılıq Siyasi Konsepsiyasının özəyi məhz bu diskursiv halqadadır.

Gələcək konsepsiyaları tədqiqatçıları və intellektulları – Karl Fridrix Vaytszekkerdən tutmuş Robert Yunka qədər – Almaniya Federativ Respublikasından idilər. Kompüter modeli və onun nəticələri onlara xüsusi təsir bağışladı. “Böyümə sərhədinin” yekun hissəsi, həmçinin hakim, Sosial-Demokrat Partiyasının (SPD) ayrı-ayrı nümayəndələrinə də təsir bağışlamışdır. Ancaq, yeni modellərə əvvəl başdan nə qədər açıq olsalar da, islahatlara bəslədikləri həvəsləri 1972-ci ildə tədricən yavaşlayırdı.

[4] Joachim Radkau, Die Ära der Ökologie. Eine Weltgeschichte, München 2011, S. 134.

[5] Dennis L. Meadows et al., The Limits to Growth. A Report for the Club of Rome’s Project on the Predicament of Mankind, New York 1972.

[6] Vgl. Elke Seefried, Zukünfte. Aufstieg und Krise der Zukunftsforschung 1945–1980, Berlin 2017², S. 235–292; Rasmus K.P. Wormstädt, Die “Limits to Growth” zwischen autoritären Angeboten und Versuchungen, RWTH Aachen 2022.

[7] Vgl. Meadows et al. (Anm. 5), S. 180; Ulrich Grober, Die Entdeckung der Nachhaltigkeit. Kulturgeschichte eines Begriffs, München 2010, S. 210–218.

[8] Zu den folgenden Absätzen mit weiterer Literatur vgl. Seefried (Anm. 6); Patrick Kupper/dies., A Computer‘s Vision of Doomsday. On the History of the 1972 Study “The Limits to Growth”, in: Frank Uekötter (Hrsg.), Exploring Apocalyptica. Coming to Terms with Environmental Alarmism, Pittsburgh 2018, S. 49–74.

İlk növbədə, İqtisadi Əməkdaşlıq Naziri Erhard Epler böyümə nəzəriyyəsi haqqındakı tənqidləri yaxşı mənimsədi. Nəticədə o, SPD daxilində ekoloji yönümlü qanadın nüvəsi yaratdı. Eplerin məqsədi Böyümə konsepsiyasından imtina etmək deyildi, o böyümənin səciyyəvi konsepsiyasından danışırdı. Həmin konsepsiya iqtisadi ilə birgə ekoloji və sosial meyarları da nəzərə alırdı. SPD-də sıfır böyümə – avtoritarlıq yolu ilə olsa belə – ciddi şəkildə müzakirə edilmirdi. Böyümə nəzəriyyəsindən avtoritarca imtina etmək haqqında tezisləri çox az sayda mühafizəkar, o cümlədən Xristian-Demokrtalar İttifaqının (CDU) deputatı Herbert Qrul qəbul etmişdir. Bir çox diskussiya-debatlara baxmayaraq araşdırmada formalaşdırılmış “Dayanıqlı Dünya Sistemi” konsepsiyası yenə də qəbul edilmədi. Onun barəsində siyasi razılığa nail olmaq yaxud çoxluq formalaşdırmaq qeyri-mümkün idi.

## DAYANIQLI İNKİŞAF

1974-cü ildən etibarən Qlobal İqtisadi Resesiya vaxtı, ətraf mühiti mühafizə etmə və inkişaf məqsədləri ictimaiyyətin diqqətindən kənarda qaldı. Eyni zamanda, BMT səviyyəsində ekspertlər “Dünya Konservasiya Strategiyası” üzərində işləməyi yenə də davam etdirirdilər. Ətraf mühitin qlobal mühafizəsi və inkişafı məsələləri bunun əsasında tazarlaşdırılmalı idi. „Dünya Konservasiya Strategiyası” barədəki debatlarda, 1980-ci ildə, “Dayanıqlı inkişaf” termini tətbiq edildi[9]. Bunun nəticəsində, 1983-cü ildə BMT-nin Baş Assambleyası Dünya Ətraf mühit və İnkişaf Komissiyasını dəvət etdi. Komissiya “Dayanıqlı inkişaf” konsepsiyasını canlandırmalı və sonra müvafiq konsepsiya hazırlamalı idi. Komissiyanın sədrliyini norveçli sosial-demokrat qadın Qro Harlem Brundtland öz üzərinə götürdü. Almaniya Federativ Respublikasını SPD üzvü Folker Hauf təmsil edirdi.[10] Komissiya nüvə müharibəsi, ətraf mühitin mühafizəsi münaqişələri və resursların qıtlığı təhlükələrinə işarə edərək təhlükəsizlik və sülhün müdafiəsi üzrə genişləndirilmiş, ekoloji meyarlara əsaslanmış konsepsiyanı hazırlamağa başladı. Müzakirə həmçinin, nəsillər, şərq və cənub arasında ədalət anlayışı barədə də keçirildi. Şimali və Qərbi Avropa təmsilçiləri hər bir ölkənin ətraf mühitin mühafizəsi standartlarını təmin etməyə borclu olduğunu nümayəndələrə bildirdilər. Digər tərəfdən, Cənubun arqumenti bu idi ki, yoxsulluq ətraf mühitin mühafizəsi problemlərinin həllində bir çox hallarda düyün rolunu oynayırdı – misal üçün, torpaq əldə etmək üçün meşələrin kütləvi şəkildə qırılması. 1987-ci ilin “Bizim ümumi gələcəyimiz” adlı hesabatında, Komissiya ilk dəfə fərqli nəsillərin ehtiyaclarını qeyd etdi: „Bəşəriyyət inkişafı elə dayanıqlı, bu günün tələblərini isə elə təmin edə bilər ki, gələcək nəsillər öz imkanlarını realizə etmək yolunda kompromislərə getmək məcburiyyətində qalmasınlar”[11]. Bununla belə, Komissiya iqtisadi böyümə konsepsiyasını dəstəklədi və başqa məslələrlə birlikdə, Cənub ölkələrinə yardım etmək məqsədilə Qlobal Şimalı Beynəlxalq fond yaratmağa çağırdı.

Federativ Respublikada SPD Brundtlandın hesabını mənimsəyərək onu sülh, təhlükəsizlk və qlobal ədalət kimi dəyərlərlə zənginləşdirdi. “Dayanıqlı inkişaf” termini, necə ki Hauf Sustainable kəlməsinə bu kəlməni uyğunlaşdırdı, 1989-cu ildə Berlində təsdiq edilmiş əsas siyasi proqramda öz yerini tutdu. Partiya proqramının “Ümumi təhlükəsizliklər şəraitində sülh” alt fəslində Sosial-Demokratlar “Dayanıqlı inkişaf” kəlməsindən Brundtlandın hesabatında olduğu kimi istifadə etdilər, yəni Ətraf mühiti müdafiə etmək və inkişafın uzunmüddətli maraqları arasında tarazlığın bir təminedici vasitəsi kimi.[12]

---

[9] Vgl. Stephen J. Macekura, Of Limits and Growth. The Rise of Global Sustainable Development in the Twentieth Century, Cambridge 2015, S. 219–260.

[10] Vgl. Iris Borowy, Defining Sustainable Development for Our Common Future: A History of the World Commission on Environment and Development, Hoboken 2013.

[11] World Commission on Environment and Development, Our Common Future, Oxford 1987, S. 8.

[12] Volker Hauff, Vorwort, in: ders. (Hrsg.), Unsere gemeinsame Zukunft. Weltkommission für Umwelt und Entwicklung, Greven 1987, S. XV; SPD, Grundsatzprogramm, Programm-Parteitag, Berlin 20.12.1989, S. 15.

1982-ci ildən etibarən müxalifətdə olan SPD, bir fəhlə partiyası kimi, işsizliyi və sənaye xidmət cəmiyyətinə keçməyi xüsusi problem olaraq görürdü. Belə ki, partiyanın qanadlarından birinin əsas proqram müddəası tamamilə qlobal mühiti müdafiə edən və inkişaf məsələlərinin tematizasiyası ilə bağlı idi. Bu SPD-yə qlobal səviyyədə öz dəyərlərini- sülhü, ədaləti, təhlükəsizliyi daha prioritetli etmək və öz yeni, uğurlu şərq siyasətinə söykənmək imkanı verdi. Bir növ idealist çalarları olan Brundtland hesabatına işarə etmək, SPD-nin daha praqmatik mövqeyi olan öz parlament qrupu ilə təzad yaradırdı. Həmin qrup ətraf mühitin mühafizəsinə dəstək verməklə işlə təmin etmə imkanlarının geniş olduğunu vurğulayırdı. Yeni baxış bazarda ekoloji cəhətdən islah edilmiş hasilat proseslərinin tətbiq edilməsi üçün, habelə "ekoloji pfeninniqlə" elektrik enerjisi, benzin və dizel, istilik üçün lazımlı yanacaqlar üzrə pilot layihələrin maliyyələşdirilməsini nəzərdə tuturdu. Proqram ekologiyanın modernləşdirilməsi, texnologiya yönümlü konsepsiya ruhu ilə dolub-daşır və bunun üçün xammal və enerji qaynaqlarından effektli şəkildə istifadə yolu ilə ikili – ekoloji və iqtisadi mənfəəti nəzərdə tuturdu.[13]

"Dayanıqlı" inkişafa işarə etmək – Brundtlandın hesabatının tərcümələrindən birinə əsasən – yalnız Soyuq müharibə başa çatdıqdan sonra tətbiq edildi. Xristian –Demokratlar İttifaqı və Xristian Sosial İttifaqı (CDU/CSU) rəhbərliyi ilə işləyən Federal nazirliklər Brundtland Komissiyasının əvvəlcə "Sənayeçi ölkələrə əsas transferlərin verilməsini" düşünəcəyindən qorxur, bunun ətraf mühitin müdafiəsi proqramları ilə doğruldulacağını düşünürdülər.[14] Digər tərəfdən, Ətraf Mühitin Mühafizəsi Naziri Klaus Topfer 1987-ci ildə bu hesabatı, yeni dünya iqtisadi nizamıyla bağlı hissəsini çıxararaq bəyəndi.[15] Bunlar, ilk növbədə, BMT-nin 1992-ci ildə Reio de Janeiroda Ətraf Mühitin Mühafizəsi və İnkişafına həsr edilmiş Konfransında (UNCED) baş verdi. Bu hamıda, o cümlədən CDU-da da artıq təkqütblü surətdə strukturlaşdırılmış aləmdə deyil, qlobal sazişlərin və sülhün qorunmasının BMT çətiri altında mümkün olacağı gözləntisini yaratmışdı. Federal Hökumət dünyada birləşmiş Almaniyanın getdikcə artmaqda olan məsuliyyətini nümayiş etdirmək istəyirdi. Sammitdən bir neçə həftə əvvəl Topfer əhalinin təzyiqi və xammalın qıtlığı "Qlobal məsuliyyətin yeni formasının" vacibliyini yaratdığını bildirmiş və onlar "gələcəkdə ətraf mühitin mühafizəsinin xarici siyasəti vasitəsilə həqiqətən də sulh siyasətini yürütmək" istədiklərini vurğulamışdı.[16] Sammitdən sonra Topfer BMT səviyyəsində ekologiya vəzifələrini yerinə yetirməli olan "Yaşıl dəbilqə"-nin faydalarından danışmışdı.[17]

Yer kürəsinin bu sammitində yaranmış bir çox gözlənti özünü doğrultmasa da, dayanıqlı inkişaf hasilat və istehlakçılığın dayanıqlı olmayan variantlarının dəyişməsi Şimalda, ətraf mühitin müdafiəsi və inkişafı sahəsində, qlobal siyasətin bir hissəsi kimi elan edildi. Biomüxtəlifliyə həsr edimiş Konvensiyanın əlavəsində sammit çərçivə konvensiyası da qəbul etdi, lakin onda $CO_2$-nin azaldılması məqsədləri təsbit edilməmişdi. Xüsusilə də ABŞ Hökuməti daha uzaqgedən sazişlərə təkan verdi.[18] CDU 1994-cü ildə Hamburq proqramına Dayanıqlı İnkişaf Konsepsiyasını daxil edərək, onu öz proqram ənənələrinə müvafiq olaraq formalaşdırdı. Xristian-Sosialçı təlimlə bağlı qlobal "Risklər cəmiyyətində" qarşılıqlı münasibət və həmrəylik amilini ön plana gətirdi. Həmin amil Şimaldakı həyat tərzi qaydalarını dəyişməyi də tələb edirdi.[19]

---

[13] Vgl. Elke Seefried, Globale Sicherheit. Die Wurzeln des politischen Nachhaltigkeitsdiskurses und die Wahrnehmung globaler Interdependenz der 1970er und 1980er Jahre, in: Christoph Kampmann/Angela Marciniak/Wencke Meteling (Hrsg.), "Security turns its eye exclusively to the future", Baden-Baden 2017, S. 353–388; Felix Lieb, Arbeit durch Umwelt: Sozialdemokratie und Ökologie 1969–1998 (i.E.).

[14] Auswärtiges Amt (AA) an Staatssekretär, 26.11.1984, in: Politisches Archiv des Auswärtigen Amtes (PA), 132176; Bundesministerium des Innern an AA, 17.1.1985, in: ebd., 132283.

[15] AA an Staatssekretär, 26.6.1987, in: PA, 194474.

[16] Deutscher Bundestag, Plenarprotokoll, 20.5.1992, S. 7598.

[17] Vgl. AA, Entwurf der Rede Klaus Töpfers vor der UN-Generalversammlung, 30.10.1992, in: PA, 195077.

[18] Vgl. Radkau (Anm. 4), S. 498–506; Macekura (Anm. 9).

[19] Vgl. CDU, Grundsatzprogramm "Freiheit in Verantwortung", 5. Parteitag, Hamburg 21.–23.2.1994, S. 437f.

## DAYANIQLIQ VƏ İŞTİRAK

1992-ci ildə BMT-nin Rioda keçirilən konfransına qədər, alman ətraf mühitin mühafizəsi təşkilatlarının əksəriyyəri və yaşıllar Brundtlandın hesabatından, bir elit proqramı kimi, imtina etdilər. Onlar dayanıqlı iqtisadi böyüməyə hədəflənmiş orientasiyanı tənqid etdilər. Onlar üçün dayanıqlı inkişaf balansı prinsipi yalnız qlobal cənubdakı ətraf mühitin çirklənməsi və yoxsulluq problemlərini əhatə edirdi və bu iqtisadi böyümənin kapitalist prinsipindən irəli gəlirdi. Cənubdakı meşələrin qırılmasının səbəbi yoxsulluq deyil, Şimal tərəfindən meşənin kommersial məqsədlərlə istifadə edilməsi idi.[20]

Eyni zamanda, Bund Umwelt und Naturschutz (BUND) və Deutscher Naturschutzring 1991-ci ildə UNCED layihəsi ofisi təsis etdilər. Məqsəd Rio prosesinə, o cümlədən yerində tədbirlər keçirməklə, təsir etmək idi. Konfransdan sonra, BUND Dayanıqlıq kosepsiyasını özü mənimsəyərək, onu sənaye ölkələrində istehlakın azaldılması tələbilə əlaqələndirərək, bunu müəyyən etdi: "Dayanıqlıq" sehirli kəlmədir.[21] Rioda Avropa Parlamentinin Yaşıllar qrupu üzvləri həmçinin vork-şoplar keçirdilər və orda Cənubdan olan zərər çəkmiş əhali də iştirak edirdi. Avropa İttifaqında $CO_2$ vergisindən əlavə, yaşıllar həmin vorkşoplara Qlobal cənubun yerli əhalisi və qadın hüquqlarını daxil etməyə çalışırdı. Onların təmsilçilikləri təhsil və daha yüksək iştirakçılıqla gücləndirilməli idi.[22] Beləliklə, yaşıllar və bir çox ətraf mühitin mühafizəsi təşkilatları bu termini onun müsbət mənası ilə qəbul etdilər. Eyni zamanda, onlar Dayanıqlı inkişafın əsas demokratik anlayışını, onda praktiki cəhətdən iştirak etmə vasitəsilə, formalaşdırdılar.

Rio konfransının əsas nəticəsi "Gündəlik 21" adlı fəaliyyət proqramının hazırlanması idi: Konfransda hökumətlərə Dayanıqlılıq strategiyalarının qəbul edilməsi, assosiasiaylar və QHT-lərin Milli Şuralara üzv edilməsi tapşırıldı. 2001-ci ildə Sosial-Demokratlar və Yaşılların Federal Hökuməti, hansı ki, daha çox dayanıqlılıq konsepsiyasına söykənirdi, Dayanıqlı İnkişaf Şurası yaratdı. Həmin Şuraya Hauf sədrlik edirdi və orda assosiasiyalar və vətəndaş cəmiyyətinin başqa aktyorları da təmsil olunurdular. Bundan əlavə, „Gündəlik 21"-in tələbi "Dayanıqlı inkişafın" bələdiyyələr səviyyəsində də işlək olması idi. Bununla belə, Dayanıqlı inkişaf qlobalca düşünmək və yerlərdə hərəkət etməyə hazırlıq bildirən aktyorlar üçün qloballaşmanın bir hissəsi oldu. Almaniyada nəinki Şəhər Şuraları və Merləri, habelə ətraf mühit təşkilatları və kilsələr belə verilmiş gündəlik əsasında ətraf mühitin mühafizəsinə aid olan prosesləri (inkişafa aid olanı deyil) başlatdılar.[23] Tullantıların daha yaxşı idarəsi ya atom elektrik stansiyasından irəli gələn təhlükələri qabaqlamaq yerli „Gündəlik" qrupların qayğı sahəsinə çevrildi. Onlar öz aktivliklərini "Dayanıqlı inkişaf" məfhumu və "aşağıdan yuxarı" prinsipi ilə get-gedə daha çox əlaqələndirir və beləliklə, demokratik proseslərdə canlanmış olurdu.

## QLOBALLAŞMIŞ ALƏM

Beləliklə, 1990-cı illərdə "Gündəlik" tərəfindən təkan verilmiş proses demokratiyanın iştirak dinamikasını üzərə çıxardı. 20 ildən sonra, Dayanıqlı inkişaf tərəfdarları demokratiyanı tənqid etməyə başladılar.

Bu dəyişikliyə nə səbəb oldu?

---

[20] Vgl. UNO-Umweltkonferenz. Voller Banalitäten, in: Natur & Umwelt Bayern 4/1991, S. 24 f; Interview der Verf. mit Barbara Unmüßig, 14.2.2022.

[21] Angelika Zahrnt, Die große Debatte: Gewinn durch Verzicht, in: Natur & Umwelt 3/1993, S. 12.

[22] Vgl. Green Group, European Parlament, UNCED, Entwurf, 1.3.1992, und Korrespondenz von Eva Quistorp, in: Archiv Grünes Gedächtnis, B II 2, BT 600; dazu Elke Seefried, Developing Europe. The Formation of Sustainability Concepts and Activities, in: Anna-Katharina Wöbse/Patrick Kupper (Hrsg.), Greening Europe. Environmental Protection in the Long Twentieth Century, Berlin 2021, S. 381–408.

[23] Vgl. Nadja Hendriks, Global denken, lokal handeln, laufendes Dissertationsprojekt im Rahmen des Verbundprojekts "Geschichte der Nachhhaltigkeit(en)", Universität Augsburg.

Tənqidçilərin gözündə, ilk amil Dayanıqlılıq konsepsiyasının əsasən iqtisadi cəhətdən müzakirəsi və diqqəti onun yalnız iqtisadi əhəmiyyətinə verməkdir. İqtisadi effektlik və modernləşdirilməyə mühit və ətraf mühiti qorumaq amilləri qədər normativ əhəmiyyət verildi. Bu prosesləri "Soyuq müharibədən" sonra fon olaraq qlobal iqtisadi liberallaşma müşaiyət edirdi. Bunu həm də qloballığın dəyişmiş interpretasiyası daha konkret "İqtisadi qloballaşma" məfhumu müaşiət edirdi.[24] Bu, Yaşıl kapitalizm konsepsiyaları üçün başlanğıc nöqtəsi oldu. Təxminən 2000-ci ildə Dayanıqlı konsepsiyasının iqtisadi ünsürü ön plana daha kəskin şəkildə çıxmışdır. Yeni yanaşma tətbiq edilməyə başladı. Həmin yanaşmaya görə, dayanıqlı innovasiyaların vasitəsilə qloballaşdırma prosesində rəqabətin gücləndirilməsi prioritet elan edildi. Bundan əlavə, iqtisadi təsirləri olan alətlər, misal üçün, emissiyyalarla ticarət də. Almaniya Federativ Respublikasında SPD və Yaşıllar texnologiyaya, bazara istiqamətlənmiş modernləşdirilmə yanaşmalarını qəbul etdilər. Həmin yanaşmaya əsasən ekologiya və iqtisadiyyatın birləşdirilməsinin başlanğıc nöqtəsi kommunikasiyadır. 1998-ci ildə koalisiya razılaşmasında onlar "Qloballaşma imkanlarından dayanıqlı böyümə, innovasiyalar və gələcəkdə yeni iş yerləri yaratmaq üçün" istifadə edəcəyi vədini verdilər".[25] Bu bəyanatı ekovergilər gətirmək və yenilənən enerji qaynaqları aktı izlədi. Ancaq energetika ehtiyatlarının "Qlobal rəqabətində" uğur əldə etmək üçün energetika sektorunun liberallaşmasına da icazə verildi.[26]

Tənqidin ikinci amili, siyasi istiqamətdə elmicə təsdiq edilmiş qlobal istiləşmə idi. 1992-ci ildə Rioda iqlim dəyişiklikləri haqda çərçivə konvensiyası imzalandı və 1997-ci ildə Kioto protokolunu qəbul etdilər. Kiyoto Protokolu BMT sistemində institusionallaşdırılmış iqlim mexanizmlərinin formalaşmasına aid idi. Bundan sonra proses dayandı, çünki qəraralmada milli maraqlar hökm sürməyə başladı və cəmiyyətləri ətraf mühitin məqsədlərinə nail olmağa təhrik edən, idealist anlamda dünya demokratiyası mövcud deyildi. Yalnız 2015-ci il Paris Sazişi qlobal istiləşmə risklərinin azaldılma hədəflərini müəyyənləşdirə bilmişdir.

Üçüncü – 2000-ci illərdən etibarən Almaniya demokratiyası da dəyişikliyə məruz qaldı. Bu mərhələdə yalnız onu deyə bilərik ki, qloballaşdırılmış cəmiyyətdə normal əmək münasibətlərinin yox olması sağçılar və solçular tərəfindən elitanın tənqidinə yol açdı. Sosial media siyasi kommunikasiyanı sürətləndirdi və partiyaları öz təzyiqi altına aldı.[27]

Ekspertlər və intellektualların dayanıqlı siyasi iqtisadiyyatlaşdırılma və iqlim dəyişikliklərinə qarşı tənqidi, siyasi münasibətlərlə yanaşı, boşa çıxmış ümidlərin sezildiyi kəskin bəyənatlarla da fərqlənir. Dünya Bankı və Federal Almaniya siyasəti tərəfindən "Dayanıqlı" qloballaşma "Neoliberal qalmaqalın qırıntısı" kimi müzakirə edilir. Dayanıqlı inkişaf dominant sosial və siyasi "qüdrət münasibətlərilə" get-gedə daha az bağlıdır və formalaşmış təsisatların ekoloji modernləşdirilməsinə və "yuxarıdan" gələn "texnokratiyadan asılı kimi qəbul edilir" [28].

İqlimin qorxulu dəyişikliklərindən yayınmaq üçün çox da uzun vaxtın qalmadığına görə, siyasətşünas Klaus Levye (Leggewie) və başqaları "Demokratiyanın modernləşdirilməsini" tələb edirdilər. QHT-lər və sosial hərəkatlara qanunvericilik məsləhətləşmə hüquqları verilməli və alimlərdən təşkil edilmiş "Bilicilər Şuralarına" daxil olmalı idilər. Həmin Şura müstəqilcə, legitimləşdirilmiş təklifləri

[24] Vgl. Jan Eckel, "Alles hängt mit allem zusammen." Zur Historisierung des Globalisierungsdiskurses der 1990er und 2000er Jahre, in: Historische Zeitschrift 1/2018, S. 42–78.

[25] Aufbruch und Erneuerung – Deutschlands Weg ins 21. Jahrhundert, Koalitionsvereinbarung zwischen SPD und Bündnis 90/Die Grünen, 20.10.1998, S. 1.

[26] Vgl. Antrag der Fraktionen SPD, CDU/CSU, Bündnis 90/Die Grünen und FDP, Einsetzung einer Enquete-Kommission "Nachhaltige Energieversorgung unter den Bedingungen der Globalisierung und Liberalisierung", 15.2.2000, Bundestagsdrucksache 14/2687.

[27] Vgl. Hartmut Rosa, Beschleunigung und Entfremdung. Entwurf einer kritischen Theorie spätmoderner Zeitlichkeit, Berlin 20165, S. 101–104.

[28] Ulrich Brand/Christoph Görg, "Nachhaltige Globalisierung"? Sustainable Development als Kitt des neoliberalen Scherbenhaufens, in: dies. (Hrsg.), Mythen globalen Umweltmanagements, Münster 2002, S. 12–47, hier S. 14.

təqdim edən bir palata kimi fəaliyyət göstərməli və Parlamentə xalqla diskussiyalar aparması üçün təzyiq etməli idi.[29]

Levye demokratiyanın demokratikləşdirilməsi üçün kampaniya apardıqda, liberal demokratiya və dayanıqlıq arasındakı gərginlik tam başqa yerdə təsbit edildi: liberal demokratiya ekoloji və sosial xərcləri dünyanın müxtəlif bölgələrinin ya gələcək nəsillərin boynuna atır. Demokratik strukturlar "Ətraf mühitin mühafizəsi böhranını nəzarətə almaq üçün bəlkə də fundamental şəkildə uyğunsuzdur". „Post-demokratiyaya çevrilmiş demokratiya" "Qeyri-dayanıqlıq siyasətini" davam etdirəcəkdir.[30] Bir az əvvəl "Cümə gələcək uğrunda" aktivisti Karla Reemts belə bir bəyənat verdi – iqlim dəyişiklikləri barədə elmi biliyə mütləq prioritet verilsin: orta çıxış yolu mövcud deyil.[31]

Bu fikir müəyyən şəkildə "Böyümə sərhədlərinin" şərtsizliyi tezisini xatırladır.

## NƏTİCƏ

Liberal demokratiya təzyiqə məruz qaldı. O dayanıqlığın çoxhədli modelilə təzadlıdır və bir qayda olaraq, tələblər və öhdəliklərlə çox yüklüdür. Gördüyümüz kimi, 1980-ci illərdən Almaniya demokratiyasının müxtəlif aktyorları Dayanıqlı inkişaf ya Dayanıqlı konsepsiyasını yeni məqsədlər və dəyərlər: sülh və təhlükəsizlik, nəsillər arasında ədalət, gender və Şimal- Cənubun, texniki modernləşdirilməsi və effektliliyi ilə əlaqələndirdilər. Demokratiya şəraitlərində, rəqabət maraqları üzərində danışıqların aparılması mümkündür, ancaq demokratiya hamısına eyni anda xidmət göstərə və nəzərə ala bilməz. Bu isə məsələlərin həlli və prioritetlərin müəyyənləşdirilməsi yolunda münaqişələrə səbəb olur.

Eyni zamanda, demokratiya və dayanıqlıq kommunikasiyasında iştirak edən aktyorlar və onların praktikası da dəyişdi. Əvvəllər əsas rolu ekspertlər oynayır və texnokratik dildə mübahisə edirdilər. Sonra Dayanıqlı inkişaf ideyaları partiya və hökumətlər üçün müəyyən modelə çevrildi. Onlar bu model vasitəsilə xarici siyasi baxışlarını müəyyənləşdirirdilər. İlk növbədə, SPD beynəlxalq arayışlardan konseptual konteksti özününküləşdirdi və onu alman cəmiyyətinə çatdırdı. Rio prosesində Dayanıqlı inkişaf aşağıdan gələn tələblər və praktika alətinə çevrildi. Beləliklə, Dayanıqlıq diskursu demokratik proseslərdə daha aktiv iştirak və cəlbedilməyə səbəb oldu. Buna baxmayaraq, vətəndaş cəmiyyətinin bu proseslərin iştirakçısı olması arzusu müasir demokratik ölkələrdə cəlbedilməni və təmsiçiliyi daha da ciddiləşdirdi. Hökumətlərin həddindən artıq həssaslığı siyasət tərəfdən uzunmüddətli məsuliyyətli davranışları çətinləşdirir[32] və, beləliklə, inkişaf templərinin yavaşımasına səbəb olur. Bu isə demokratiya və dayanıqlıq arasındakı debatlarda gərginlik barəsindəki narahatlılıqlar yaradır. Bu cəhətdən bu əsər demokratiyada dayanıqlıq konsepsiyasının, hansı ki demokratiyadan yuxarda dayanmır, müzakirəsi üçün bir növ tarixi perspektivdən olan təklifdir. Dayanıqlıq konsepsiyasının bir daha müəyyən sərhədlərə salınması üçün deyiləcək çox şey var.[33]

*Mənbə:*
*Ökologie und Demokratie / Aus Politik und Zeitgeschichte jurnalı 21-22/2022*

---

[29] Vgl. Claus Leggewie, Klimaschutz erfordert Demokratiewandel, in: Vorgänge 2/2010, S. 25–43, hier S. 41; dazu auch Beiträge in Bornemann/Knappe/Nanz (Anm. 2).

[30] Ingolfur Blühdorn, Nachhaltigkeit und postdemokratische Wende. Zum Wechselspiel von Demokratiekrise und Umweltkrise, in: Vorgänge 2/2010, S. 44–54, hier S. 44, S. 52.

[31] "Kompromisse funktionieren bei der Klimakrise nicht", Interview mit Carla Reemtsma, 25.9.2020, Externer Link:http://www.zeit.de/campus/2020-09/carla-reemtsma-fridays-for-future-klimaschutz.

[32] Vgl. Wolfgang Merkel/Andreas Schäfer, Zeit und Demokratie. Ist demokratische Politik zu langsam?, in: Holger Straßheim/Tom Ulbricht (Hrsg.), Zeit der Politik, Baden-Baden 2015, S. 218–238, hier S. 228.

[33] Zur "starken Nachhaltigkeit" vgl. etwa Konrad Ott/Ralf Döring, Theorie und Praxis starker Nachhaltigkeit, Marburg 2004.

# İQLİM DƏYİŞİKLİYİ
## VƏ DEMOKRATİK CƏMİYYƏT

Klaus Diore
Yohanes Varvik
Yana Alyets
Elke Zeefrid
Cozef Stiqlits
Cefri Saks
Coş Byurk
Uğur Akıncı

Tbilisi
2022

„კულტურულ ურთიერთობათა ცენტრი — კავკასიური სახლი“
თბილისი, გალაკტიონის ქ. №20